

Habil Yaşar
YOKLUĞUMUN VARLIĞI

Ədəb - 2405/4

Habil Yaşar

YOXLUĞUMUN VARLIĞI

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

Habil Yaşarın oxuculara təqdim etdiyi bu kitabda yazarın dünyaya baxışları, könül duyğuları, eyni zamanda fəlsəfi düşüncələri öz əksini tapmışdır. Kitabda şeirlər və hekayələr toplanmışdır. Bu şeirlərdə hər kəs öz yaşantılarını duyub, real və mənəvi dünyanın harmoniyasına qapılacaq. Bundan öncə şairin 2001-ci ildə "Səni sevdim, sevəcəyəm", 2003-cü ildə "Məni sevgi yaratdı" kitabları oxuculara təqdim edilmişdir.

Habil Yaşar
YOXLUĞUMUN VARLIĞI
Bakı, Qanun Nəşriyyatı, 2012
184 səh.

© Habil Yaşar, 2012
© Qanun Nəşriyyatı, 2012

Bakı, Az 1102, Tbilisi pros., II Alatava 9.
Tel: (+994 12) 431–16–62; 431–38–18
Mobil: (+994 55) 212 42 37
E–mail: info@qanun.az
www.qanun.az

Sevirəm, çünki sevməsəm yaza bilmərəm.
Yazıram, çünki yazmasam yaşaya bilmərəm.
Yaşayıram, çünki yaşamasam sevərək yaza bilmərəm.
Habil Yaşar

Ön söz

Üzü sabaha...

Gənc şair, mənəviyyatlı insan, gözəl öyrətmən, vəfalı dost Habil Yaşar yeni kitabı üçün bir yazı yazmağı təklif etdikdə sevindim. Sevindim, çünki kitab çıxacaqdı; mənim üçün əziz insan olan Habil Yaşarın – kitab qədri bilən bir insanın kitabı çıxacaqdı! Onun artıq üçüncü kitabı olan *"Yoxluğumun varlığı" kitabı* son illərdə qələmə aldığı şeirlərindən ibarət olmuşdur. *"Qələmə aldığı"* deyirik, çünki Habilin heç də bütün şeirlərini, bütün şeirsəl anılarını, şeirsəlliklərini bizə təqdim etmədiyini düşünürəm yalnız qələmdən (çağdaş intonasiya ilə desək: "bilgisayardan") keçənlərini paylaşır bizimlə... Onun şeir xəsisliyi etdiyini düşünmürəm, bəlkə tam tərsinə – doğru etdiyini demək istəyirəm. Bilirsiniz, Habilin İlahi biliklərə, yaşına görə yaxşı vaqif olması, yenə yaşına görə oxuduqları, əldə etdiyi uğurlar və fikir süzgəcindən keçirdikləri ilə sırf ədəbbədii planda yaza biləcəklərini göz önündə tutur və "o doğru edir" qərarına gəlirəm. Heç də hər şeyi yazmaq (başqa sözlə: paylaşmaq) lazım deyil, həm daha yaxşısı yazılıbsa, həm də daha yaxşı yazacağın

məqam qarşıdadırsa... Bir də elə mövzular var, bəlkə heç şeirlik deyil, bəlkə elə toxunulmamış – "bakirə" qalsa yaxşıdır... Zira, şairin yaşamı da bir şeirdir – ÖMÜR ŞEİRİ!...

"Yoxluğumun varlığı" kitabı Habilin üçüncü kitabıdır. Onun hələ 19 yaşında ikən qələmə aldığı, onu sevən və onun sevdiklərinin marağı ilə qarşıladığı *"Məni sevgi yaratdı"* adlı kitabı gənc şairə uğur gətirdi. Habil bundan ruhlanaraq mətbuatda daha tez-tez göründü, ədəbi müzakirələrdə iştirak etdi, öz fikir və mülahizələri ilə çıxış etdi. Təbii ki, onun da, başqalarının da ürəyindən keçənləri – uyğun bildiklərini yazmaq haqqı var, eyni güclə oxucularının da onun haqqında öz münasibətlərini açıqlamaq haqqı...! Mən Habili HAQQa sayğılı gördüm həmişə!

Habil şeir yaradıcılığı ilə yanaşı publisistik yazılarla, nəsr örnəkləri ilə də çıxış edir; hansı türdə yazmasından asılı olmayaraq, öz yazılarında həmişə İŞIĞa doğru gedir, HAQQ arayır. O, toplumumuzda və dünyada baş verən proseslərə biganə deyil, publisistikasında elmiliklə bədiiliyi vəhdətdə görür, özünə, özgü sonuclara varır.

Gənc dostuma yeni-yeni yaradıcılıq uğurları diləyir, ən xoş arzularımı bildirirəm!

Ə.QOŞALI
DGTYB başqanı

ŞEİRLƏR

ÇƏKİRİK

Bu dünyada kim nə bilir, kim nə çəkir,
Bilinməzi kimsə bilməz, kimsə çəkir,
Mən çəkirəm, sən çəkirsən, o da çəkir,
Çəkiləsi sevinc deyil, dərd çəkirik.

Bu dünyada insanlığın üzü qara,
"Beş" sözünün ikisi ağ, üçü qara,
Öz rəngindən utanıbdı özü qara,
Bəyazı da qaralayıb, xətt çəkirik.

Bu dünyada kim deyir ki, azdı yanan,
Yüz illərdi Kərəm üçüm sazdı yanan,
Doğulandan ölənədək sızıldayan,
Könüllərin gülüşünə sədd çəkirik.

08.09.2009

DÜNYA

Gəlməz özünə dünya,
Getməz düzünə dünya,
Gülüb üzümə dünya,
Ağladıb belə məni.

Yamanca kordu dünya,
Yaxşıya gordu dünya,
Məni də yordu dünya,
Çərlədib belə məni.

Gözümə baxa bilməz,
Yaş olub axa bilməz,
Sonuma çıxa bilməz,
Öldürüb belə məni.

Həya üzündən gedib,
Nuru gözündən gedib,
Vallah özündən gedib,
Çaşdırıb belə məni.

07.01.10

DÜNYA, ÖZÜN BOYDA DƏRD VERDİN MƏNƏ

Dünya, özün boyda dərd verdin mənə,
Bu yükü çiynimdə daşıyıram mən.
Götürsən bu yükü çiyinlərinə,
Görərsən, ah, necə yaşayıram mən.

Dünya, özün boyda kədər payını,
Sən mənim ömrümə tuş eyləmisən.
Süzüb badələrə içib qanımı,
Mənim sağlığıma nuş eyləmisən.

Dünya, özün boyda kədərin, qəmin,
Bir özün boyda da göz yaşların var.
Necə qəribədir sənin aləmin,
Haqlı da, haqsız da savaşların var.

Dünya, özün boyda dərd yuvasısan,
Bu evi uçurub, dağıtmaq olmur.
Sinəmi min yerdən yaralayıbsan,
Elə bir yara ki, sağaltmaq olmur.

Dünya, özün boyda dərd okeanı,
Sonsuz fırtınalar ocağısanmış.
Yaxşı tanımazdım mən bu dünyanı,
Sən demə, ilanlar qucağısanmış.

2008

XƏZƏR

Bu gün sahilində dayanacağam,
Sənlə söhbətə gəlirəm, Xəzər.
Sirrimi tək sənə mən açacağam,
Səndə pənahımı gəzirəm, Xəzər.

Sən də dalğalısan illər boyunca,
Mənim ürəyim tək dayanmayırsan.
İnsan rahat olur həmdərd olunca,
Nədəndi dərdimə inanmayırsan?!

Nəhəng olmağınla öyünmə, Xəzər,
Mənim dərdlərimdən böyük deyilsən.
Alarsan qoynuna, o səni əzər,
Götür dərdlərimi götürə bilsən.

Sevin ki, başına dolanır quşlar,
Mənimsə başıma dolanan hanı?!
Sənin üzərinə yağan yağışlar,
Mənim göz yaşımdır gəzir dünyanı.

Ulduzlar bərq vurur suyunun üstə,
Ləpələr şirin bir nəğmə söyləyir.
Mənsə dayanmışam ürəyi xəstə,
Dərdlərin əlindən içim inləyir.

Demə paxıllığım tutacaq sənə,
"Paxıllıq" deyilən o, mənə yaddır.
Baxsan ürəyimin dərinliyinə,
Bir deyil, min Xəzər sıxışacaqdır.

2008

ALLAH

Bu bahar ömrümə bir sazaq düşüb,
Qışmı yaşayıram, baharmı, Allah?!
Ayrıldıq, araya bir ocaq düşüb,
Mənmi alışıram, o yarmı, Allah?!

Özüm öz içimdə əriyən mənəm,
Ağlayıb, sızlayıb, göynəyən mənəm,
Min yükü çiynimə götürən mənəm,
Haqmı daşıyıram, nahaqmı, Allah?!

Səhərin dan yeri açılan deyil,
Yoluma bir işıq saçılan deyil,
Yazılan yazılıb, pozulan deyil,
Ağmı yaşayıram, qaramı, Allah?!

Elə bir yerdəyəm, gəl apar mən,
Tikansız bir güləm, dər qopar məni,
Haraya getsəm də, dərd tapar məni,
Dərdmi xoşlayıram, vüqarmı, Allah?!

Həsrətin əlindən əldən düşmüşəm,
Ağızdan düşmüşəm, dildən düşmüşəm,
Deyəsən, mən yerə göydən düşmüşəm,
Düzmü danışıram, yalanmı, Allah?!

2008

YUXULAR

Yuxular həqiqət olsaydı, əgər,
Arzular, xəyallar gərəksizləşər,
Bir heçə dönərək məhv olacaqdı,
İnsan yuxularla yaşayacaqdı.

Kiminin yuxusu sevinc dolusu,
Bir deyil, min dəfə görmək arzusu,
Onun ürəyinə taxt salacaqdı,
İnsan yuxulara aldanacaqdı.

Kiminin yuxusu həsrət qoxulu,
Həyatın özü tək o da qorxulu,
Bir daha yuxular görməsin deyə,
O nifrət edərdi yuxu görməyə.

Yuxular qəribə xoş, dəhşət kimi,
Biz onu görürük həqiqət kimi.
Yuxunu həqiqət sandığımızdan,
Onu axtarırıq zamanbazaman,

Yuxular həyatın özündə həyat,
Bəzən həyəcansız, bəzən narahat.
Bir günü özünə sevdirir bizi,
Bir günsə sındırır ürəyimizi.

2007

Ə-2705/14

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

QARA BULUD

Qara bulud,
Qara bulud,
Məni unut...
...

Qara bulud,
Dərdin-qəmin,
simgəsi,
məzarların,
rəngisən...

Qara şərin rəngisən,
qara illərin rəngi.
Bəşərin qənimisən.
Ayrılıq sən,
ölüm sən,
iztirab sən,
zülüm sən.

Qara düşərli olmur,
qara bulud,
qara bulud,
mən qaranı unut...

2008

QABIRĞALAR...

Qabırğa bədənlərin
ayağı altında titrəyir.

Qabırğa bədənlərin,
qabarlı əlləri
göyə açılı.

Qabırğa bədənlərin
qırış-qırış olmuş alınlarından
zəhmət suyu tökülür.
Qabarlı əllər
yumurlanıb bükülür.
...
Qabırğalar qabar-qabar əllərini
qaldıraraq
qışqırırdı qaba-qaba.
...

02.08.08

MƏMLƏKƏTİM

Mən doğuldum şaxtalı, boranlı qış axşamı,
Mən doğuldum alovlar, odlar məmləkətində.
Mən doğuldum tanıyım vətənimi, anamı,
Mən doğuldum onlarla bağlı səadətimdə.

Yaşayıramsa, demək, borcluyam bu torpağa,
İliyimdi, qanımdı, canımdı məmləkətim.
Bu gün döyüş olarsa vətəni qorumağa,
Hazır bütün varlığım, hazır bütün xislətim.

Ölərəmsə vətənin uğrunda ölmək mənə,
Ölümlərin ucası şəhidlik gətirəcək.
Mənim doğma torpağım Azərbaycanım yenə,
Dastanlara sığmayan oğullar yetirəcək.

Mən doğuldum tər-təmiz ədalət ölkəsində,
Ürəyi sevgi dolu, məhəbbət ölkəsində,
Günəş kimi parlayan həqiqət ölkəsində,
Mən doğuldum əbədi səadət ölkəsində,

05.11.2009

HƏLƏ

Bir ah çəkməyimlə quruyar dünya,
Hələ çəkməyirəm, dözürəm hələ.
Bir kəs axtarıram qoruyar dünya,
Hələ axtarıram, gəzirəm hələ.

Mənim dərdlərimin yaşı az deyil,
Dünyayla bərabər doğulub dərdim.
Onun kefi kimi, kefim saz deyil,
Dərdlərin əlindən yorulub dərdim.

Dünyanın gözündən düşməyib hələ,
Qalıb boğazımda ilişən dərdim.
Dünya dərdim kimi bişməyib hələ,
Kömür tək alışıb, közləşən dərdim.

16.12.2009

AĞAC

Nə gec yetişir bu ağac?!
Niyə belə gec böyüyür budaqları?!
Sərin mehdən töküləcək yarpaqları.
Səbəb birmi, ya ikimi?!
Bu ağacın kökü bəlkə su görməyib.
Bircə damla suya möhtac sanki ağac,
Birdən-birə böyüyəydi kaş ki ağac.
Daha gecmi yetişəcək?!
Düşünürəm dərin-dərin.
Bu ağacda gözü qalıb,
ola bilsin
neçə-neçə
bədgözlərin.
Dərdin nədir, desən, ağac?!
Dərmanım yox verəm, ağac.
Bəlkə bizdən incimisən?!
Saxlayırsan ürəyində?!
Etinasız yanaşmışıq,
Budağından,
yarpağından
qıra-qıra
böyüməyə qoymamışıq.
Ya özündən incimisən?!

Qabığında qırış-qırış
cadar-cadar
öz içindən yeyir bəlkə səni qurdlar?!
Mən nə bilim, nə söyləyim,
Ola bilər tamam şair sözü.
Amma onu bilirəm ki,
Ağac kimi göz önündə
yavaş-yavaş məhvə gedir
dünya özü...

2008

HƏR KƏSİN ÜZÜNDƏN TÖKÜLÜR ÖLÜM

Hər kəsin üzündən tökülür ölüm,
Heç kəsin üzünə baxa bilmirəm.
Hər kəslə sevgimi razıyam bölüm,
Heç kəslə dərdimi bölə bilmirəm.

Hər kəsin heç kimə çatmayır gücü,
Heç kəsin hər kəsə məhəbbəti yox.
Hər kəsə sirrimi söylərəm düzü,
Heç kəsin sözündə sədaqəti yox.

"Hər kəslər, heç kəslər dünyası" nağıl,
Heç kəs bu kitabı oxumayacaq.
Yaşama, ey dünya, yaşama dağıl!
Yaşasan ədavət yox olmayacaq.

11.02.10

ÖLÜMÜMƏ AĞI

Üzüm üşüyəcək torpaq yerinə,
Bu soyuq üzümə vuracaq mənim.
Hopub sümüyümə, iliklərimə,
Soyuqdan donacaq düşüncələrim.

Soyuqdan donacaq düşüncələrim,
Duyğular hissindən uzaqlaşacam.
Belə başlayacaq qara günlərim,
Hər gün zərrə-zərrə yazıqlaşacam.

Hər gün zərrə-zərrə yazıqlaşacam,
Görkəmim, bədənim yazıqlaşacaq.
Özüm də bilmədən torpaqlaşacam,
Torpağın üzü də soyuqlaşacaq.

2010

KÖRPƏ DİLƏNİR

Görürəm mən nələr, görmürəm Allah,
Ağlıma gəlməyən, başıma gəlir.
Niyə yaşayıram, ölmürəm, Allah?!
Böyüklər bir yana, körpə dilənir.

Əl açıb yalvarır, körpə dil tökür,
Bir tikə çörəyə ehtiyacı var.
Mənimsə qəlbimə qaranlıq çökür,
Necə yaşayacaq həyatı onlar?!

İstehza baxışlar, acı gülüşlər,
Hədəf qızcığazın üzərindədir.
Adamın başına göydən daş düşər,
Bu körpə balanın günahı nədir?!

Dilənir bir mələk, günahsız bəndə,
Heç kəsə bu tale qismət olmasın.
Ağlayım eybi yox, mən öz içimdə,
Amandır, körpələr qoy ağlamasın!

Körpənin gününə yanır ürəyim,
Xəcalət çəkirəm utandığımdan.
Yaşamağa haqqım varmıdır mənim,
Bir insan taleyi məhv olur, aman!

2009

DÖZÜRƏM HƏLƏ

Dözürəm yana-yana
bu dəcəl dünyanın ərköyünlüyünə.
ərköyün olduğu qədər də
tərsliyinə,
inadına.
Bir-birinin əksi olan
mənfisinə,
müsbətinə,
düzlüyünə,
əyrisinə.
Dözürəm hələ ki
etibarsız dünyamızın cahilliyinə.

Qəlbimin yağını yeyə-yeyə dözürəm,
saxta insanların
saxta məhəbbətlərinə.
Sevgini ehtirasa çevirən
"leyli", "məcnunların" əyləncəsinə.
"Ana" adına ləkə gətirəcək,
bəzi qadınların fahişəliyinə.
Onları bu yola düçar edən,
bəzi kişilərin vəhşiliyinə.
Dözürəm hələ ki
əxlaqsız dünyamızın ədəbsizliyinə.

Qanım qarala-qarala dözürəm,
körpə uşaqların
işıqsız sabahlarına.
Oxumaq əvəzinə
veyl-veyl gəzən yeniyetmələrin
səfilliyinə.
Tinlərdə siqaret çəkib
intihar edənlərin mənəviyyatsızlığına.
Dözürəm hələ ki
savadsız dünyamızın rəhmsizliyinə.

Əllərimi sinəmə sıxa-sıxa dözürəm,
mənliyini,
keçmişini
unudanların iradəsinə.
"Müasirlik" adı altında,
manqurtlaşan,
heyvanlaşan
beyinlərin düşüncəsinə.
Dözürəm hələ ki
unutqan dünyamızın huşsuzluğuna.

Dözürəm min bir əzab çəkə-çəkə,
göz yaşımı tökə-tökə,

Qarabağın yoxluğuna!
Varlığımın varlığından utanıram
gündə min yol!
"Bu dünyada yaşamağa haqqım yoxdur!"
deyə-deyə
bu dünyadan qovuluram.
Dözürəm hələ ki
bu haqsız dünyamızın tərəfkeşliyinə.

Dözürəm,
dözümün də,
səbrin də,
sonu vardır bu dünyada.
Güman, sabah dözməyəcəm,
dözə-dözə ölməyəcəm,
"Mən dözürəm!" deməyəcəm,
Ola bilər
düşünürəm özüm də.
Gün gələcək
tükənəcək
dözümüm də.

2008

AĞARTMAYIB

Mənə dərd verən, Allah,
Dərmanın unutmayıb.
Qəlbimi görən, Allah,
Rəhmətin azaltmayıb.

O, rəhmandır, rəhimdir.
Hər bir işdə kərimdir,
Yaratdığı elmdir,
Boşuna yaratmayıb.

O bilər niyyətləri,
Eşidər söhbətləri.
Sirlidir hikmətləri,
Tam açıb ağartmayıb.

2008

SOYUYUB

Soyuyub bu dünya,
yumruq boyda ürəkləri
isidə bilməyəcək qədər soyuyub.
Havası soyuyub,
rəngi soyuyub.
Mənası, ahəngi,
nəyi varsa soyuyub.
Bu soyuq, deyəsən, həddini aşıb,
dünya soyuyaraq həddini aşıb.

28.04.10

TÜRKÜN SƏSİ

Türkün səsi... haqdan gələn bir səda,
Bu sədanı eşitməli, duymalı.
Haqq bağıran bir xalq varsa dünyada,
O da türkdür, türkə dəstək olmalı.

Türkün səsi...öz səsindən tanınar,
Özgə səslər bu sədaya bənzəməz.
Ədaləti yer üzünə yayanlar,
Haqsızlığa göz yumaraq gəzəmməz.

Türkün səsi...peyğəmbərin duası,
"Amin" deyən milyon dillər var olsun.
"Əzəl-axır dünya türkün dünyası",
Yer üzünə haqq səsimiz car olsun.

Türkün səsi... xoşməramlı bir səda,
Bu səs ilə dünya, üzün güləcək.
İnsanlıqdan uzaqlaşan dünyada,
"Mutlu günlər" türk oğluyla gələcək.

07.06.10

MƏN DƏ DİLƏNÇİYƏM

Gözümü açandan axtarışdayam,
Yaş töküb mərhəmət umuram bəzən.
Gah ərişdi yolum, gah arğacdayam,
Bir soyuq baxışdan donuram bəzən.
Çıraq axtarıram qaranlıqlara,
İşıqlı, nurlu bir yer axtarıram.
O yerdə yenidən qurulan dünya
Bir könül sultanı, pir axtarıram.
Mənim axtardığım nədir, soruşsan,
Özümçün heç bir şey "dünya" deyirəm...
"Eşq", "ürək", "həyəcan", "sevda" deyirəm,
Mənim axtardığım odur sonunda...
Axtara-axtara gəzirəm hələ,
Yolları yollara qatıb gedirəm.
Hələ tapmayıram axtardığımı,
Axtara-axtara itib gedirəm.

12.07.2010

NİGARAN TABUT

Kədər gözlərdən süzülüb gələn
yanğıların sübutu.
Ölüm çəkilən əzabların
bir andaca sükutu.
İnsafdan deyil axı
bu qədər yormaq olmaz
Gözləri yolda qalan
nigaran tabutu.

2004

ÖLƏN TORPAQ

Cadar-cadar
quruyurdu torpaq
havanın dözülməz hərarətindən.
Və canında hiss edirdi
susuzluğun yanğısını.

Göyə zillənirdi baxışları,
həzin-həzin.
su dilənirdi
buludların topasından
partlaq-partlaq dodaqları.

Buludlar simic kimi
diriltmirdi
ölü torpağı olan
quraqlıqları.

2004

GƏRƏK

Yanam günəş kimi, yanam şam kimi,
Pərvanə eşqiylə odlanam gərək.
Özümə qəhərli bir axşam kimi,
Özüm də özümə yadlanam gərək.

Tökəm göz yaşımı, tökəm sel kimi,
Əsəm külək kimi, əsəm yel kimi,
Sızlaya-sızlaya Sarıtel kimi,
Hər dərdə, əzaba qatlanam gərək.

Yarsız neyləyirəm quruca canı,
Gülüb-danışmağı, şöhrəti-şanı,
Amalım yolunda gəzib dörd yanı,
Bu taydan, o taya atlanam gərək.

Çıxam öz yolumdan, ox kimi çıxam,
Əngəl, maneəni adlayıb yıxam,
Ölsəm bilinməz ki, varmıyam, yoxam,
Qalsam sevgilimlə şadlanam gərək.

Yağam yağış kimi, qar kimi yağam,
Həsrəti əlimlə öldürəm, boğam,
Hər səhər günəş tək yenidən doğam,
Yanıb eşq oduna odlanam gərək.

Keçəm qayaları, sıldırımları,
Vecimə almayam ildırımları,
Mənə olan bütün etimadları,
Bir gün Allah qoysa, doğruldam gərək.

2006

ŞƏHƏR GECƏLƏRİ

Süd kimi bəyaz
aydınlıq bir gecə.
Gecənin nəğməkar ritmlərinə
rəqs eləyir
səmadakı ulduzlar.
Uzaqlarda tək-tək nəzərə çarpan adamlar
və
onların arxasınca yeriyən kölgələr,
ara-sıra eşidilən qarışıq səslər.
Sahillərdə dövrə vuran
dalğaların pıçıltısı.
Gəmilərə yol göstərən
mayakların işıltısı.
Yol qırağı cərgə-cərgə şaxələnən
ağacların gözəlliyi.
Meh əsdikcə yarpaqların
Həzin-həzin xışıltısı.
Haradasa yem axtaran
böcəklərin vızıltısı.
Şəhərin qaynar nöqtələri
əsrarəngiz, çilçıraqlı binalar
və
yollarda gedib-gələn maşınlar.

Bir tərəfdə musiqinin
heyran edən çalıntısı.
Bir tərəfdə gölməçədə
əks olunan ayın çarpaz parıltısı.
Yol qırağı, ağac altı,
Sevənlərin görüşləri.
Bu görüşü canlandıran
İsti-isti öpüşləri.
Nələr olmayır ki, gecə,
Həyat qaynayır, qarışır.
Təbiətdə hər hüceyrə,
Yaşamaq üçün çalışır.

22.12.05

ANADIR

Bəxş edən ömrü bizə bil ki, səbəbkar anadır,
Dahilər yetişdirən güclü sənətkar anadır.

Vicdansızdı övlad, oğul yolunu azsa əgər,
Ağlayar qan ürəyi sanma günahkar anadır.

Nə qədər gözəldisə bu dünyanın cah-calalı,
Yaradandan biz üçün böyük yadigar anadır.

Saysız olar "can" deyib, "can" eşidən tanışların,
Yolunda can verənin bil ki, doğmakar anadır.

Sözləri musiqili yağ tək yayılar ürəyə.
Etiraf eylər hamı şair, bəstəkar anadır.

Hər evi, hər ocağı cənnətə döndərən odur,
Əlləri gül qoxuyar, pak və təmizkar anadır.

Habili bəxş elədi bu gözəl kainata,
Bu ömür yollarına, daim duakar anadır.

2004

GÜLMƏ, BU DÜNYANIN ÜZÜNƏ, GÜLMƏ

Gülmə, bu dünyanın üzünə, gülmə,
Gülsən ağladacaq acılığından.
Bir gün qaldıracaq ucaya səni,
Bir gün endirəcək ucalığından.

Getmə, bu dünyanın dərinliyinə,
Dayazı dərindir, dərini dayaz.
Harada olsan da batırar səni,
Onun sahilinə etibar olmaz.

Sevmə, bu dünyanın üzünü, sevmə,
Sevsən nifrətini qazanacaqsan.
Bir deyil, min oyun açar başına,
Oynama, onunla uduzacaqsan.

Dünya bağışlamaz, bağışlasan da,
"Bağışla" sözünü unudub dünya.
Onun dəyərini alqışlasan da,
Bil, səni hörmətdən salıbdı dünya.

Baxma, bu dünyanın sözünə, baxma,
Dünyadan Allahın acığı gəlir.
Özün özlüyündə özün ol, yetər,
Sən özün olanda dünya təkləşir.

17.08.2010

23:20

BİR GÜN

Bir gün öləcəyəm səssiz-səmirsiz,
Heç kəsə bir zəhmət olmasın deyə,
Özümü dəryaya qərq edəcəyəm.

Məni hissə-hissə axtaracaqlar,
Adımı söyləyib bağıracaqlar,
Fəqət, olmayacaq bir gördüm deyən.

Dərdimi içimdə boğub öləcəm,
Evimdə bir matəm qurub öləcəm,
Öləcəm, öləcəm qəsdən öləcəm.

Mənim varlığımı istəməyənlər,
Məzarım üstündə ağlayacaqlar,
Məni məzara da qısqanacaqlar.

Yeni bir həyata başlayacağam,
Burada səadət tapa bilmədim,
Məzarda xoşbəxtlik yaşayacağam.

2008

GÜLƏ-GÜLƏ AĞLADIM

Bir gün heç gülməyəcəyimi,
gülə biləməyəcəyimi
düşünərkən ağladım.
Ağlaya-ağlaya gülməyi,
Gülməyin nə olduğunu unutdum.
Unudaraq yaşadım
ömrün gənclik illərini
və
necə ki, yaşayıram
onun fəsillərini.
Gülə-gülə ağlamağım,
ağlaya-ağlaya gülməyimdən çox oldu.
Ağlamaqla ovundum
Gülməli günlərimin ağlamalılığına.
Mən belə yaşadım
gülə-gülə ağlamağı,
ağlaya-ağlaya gülməyi.
Sınmadan,
əyilmədən.

05.09.2010

YAĞ, EY YAĞIŞ...

Gecədir...
Bir qaranlıq otaqda oturmuşam
duyğularla baş-başa.
Pəncərəmə damla-damla axır,
İnci yağış damlaları.
Nə zamandır həsrət idim
belə çiskin yağışa.
Arzuları,
diləkləri
ən yaxın sirdaşıma
söyləyirdim həzin-həzin.
O da mənə cavabında
qanlı-qanlı ağlayırdı,
yas tuturdu
nakam qalmış arzuların ölümünə.
Kəsmə yağış, yağ, bu gecə,
yağmağınla neçə-neçə sevənlərin
sədasını duyacaqsan
insanlardan gizlicə.
Yağ, ey yağış,
o pak, təmiz damlaların

yollarıma su çiləyir.
Soyuğunda isinəcək
bir varlığın coşqun səsi
səndən ümid diləyir.
Yağ, ey yağış, dayanma sən,
Yağmağınla
neçə yanğın ürəklərin
alovunu kəsəcəksən.
kəsmə yağış, kəsmə yağış,
bu qaranlıq gecələrdə
mənim üçün nağıl danış.

17.04.03

BİR YARPAĞIN QÜRUB ÇAĞI

Bir ağac var uzaqda,
və
o ağacın budaqlarında
bir yarpaq var
solmuş,
saralmış.
Və
bu yarpaq
ömrünün qürub çağını yaşayır.
Az müddət sonra
bu yarpaq
asta-asta,
yavaş-yavaş,
budağından ayrılıb
düşəcək torpaq üstə.
Bu yarpaq
son dəfə hiss edir
budağının istisini
öz canında.
Və
son dəfə vidalaşır
budaqla
iki yol ayrıcında.

Budur həmin bu yarpaq
aram-aram enir
torpağa sarı.
Torpaq onu salamlayır
dil açıb gülə-gülə
nəğmə deyir dodaqları
ilin xəzan çağında.
Özgə yarpaqlar kimi
bir yarpaq da ayrılır
öz doğma budağından.
Günlər gəlib keçdikcə
bu ağac da quruyur
yarpağın fərağından.

2003

YAĞIŞ OLMAQ İSTƏYİRƏM...

Yağış olmaq istəyirəm
gecələrin yağışı.
Nə sərt olam,
nə də zəif,
narın-narın yağam-yağam,
yağa-yağa baxam-baxam,
insanların baxışında
sevgiləri,
nifrətləri
duyam-duyam.
Duya-duya yuyam-yuyam
insanlığın günahını.

Yağış olmaq istəyirəm,
gecələrin yağışı.
Pəncərədən asılı qalan
sevənlərin acısını
öz içimə çəkəm-çəkəm.
Çəkə-çəkə yağmur tökəm
sevənlərin atəşinə.
Heç olmasa yarasaydım
sevənlərin bir işinə.

Yağış olmaq istəyirəm,
gecələrin yağışı.
İlham olam şairlərə,
təsvir olam rəssamlara,
bir musiqi bəstələdəm,
bəstəkarlıq edənlərə,
mən yağışı sevənlərə,
yağış qədri bilənlərə,
həyat verəm,
ömür verəm.
Yağa-yağa
quruları nəmləndirəm,
könülləri şənləndirəm.

Bax, beləcə
yağış olmaq istəyirəm,
gecələrin yağışı.

02.10.2010

GÜLƏ GÜL KİMİ YANAŞ ...

Əzməyin çiçəkləri,
Tapdamayın gülləri!
Gül cənnət qoxuludur,
Qoruyun ətirləri!

Gül insandan inciyər,
İnsan güldən inciməz.
O elə bir incidir,
İncilərdən keçinməz.

Hər gülün öz duyğusu,
Öz gözəl ətiri var.
Gülə gül kimi yanaş,
Gülündə xətiri var.

Gülü çiçəkdən soruş,
Çiçəyi güldən soruş.
Gülə olan sevgini,
Gəz, dolan eldən soruş.

İnsan gülə bənzəyir,
Hər insan bir gül olur.
Güllər dəyişmir, amma,
İnsan dəyişkən olur.

22.01.2011

QIYMAYIN BARIŞIN COCUQLARINA...

Qıymayın barışın cocuqlarına,
Qırmayın barışın cocuqlarını.

Hələ cocuqdular günahları nə?!
Hələ bu dünyadan xəbərsizdilər.
Nədən xal salırsız ürəklərinə,
Sanmayın qəlbi yox, ürəksizdilər.

Cocuqlar dünyanın göyərçinləri,
Dünyaya ən şirin nazdı cocuqlar.
Nədən əzirsiniz tər çiçəkləri,
Ətirli bahardı, yazdı cocuqlar.

Axmasın göz yaşı, "cocuq" deyilən,
Bəşər övladının yanaqlarından.
Qayğıya möhtackən, qayğısız ölən,
Cocuqlar kam alsın cocuqluğundan.

Cocuqlar dünyaya barışa gəldi,
Barış arzusuyla yaşayır onlar.
Onlar da sevinib, gülə bilərdi,
Bu hissə qıymadı "böyük" olanlar.

24.01.2011

TAPMAQ İSTƏYİRƏM...

Getmək istəyirəm çox uzaqlara,
İnsanlar olmayan bir yerə getmək.
Orada yaşamaq, orada ölmək.
Ölmək istəyirəm uzaqlıqların,
O səssiz-səmirsiz əhatəsində.

Nə bir qadın gəlsin qəbrimin üstə,
Yalandan dil açıb ağı deməsin.
Vaxtımda qədrimi bilməyən bir kəs,
Vaxtsız ölümümdən kədərlənməsin.

Uçmaq istəyirəm göylərin yeddi qatına,
Oralar ləkəsiz, necə təmizdi!
Göylər paklığından, məhəbbətindən,
Məni sirdaş bilər, məni dost bilər.
İncitməz həyatın sərt üzü məni.

Oraya bir insan ayağı dəyməz,
Məndən özgəsini götürməz ora.
Mənim sevincimi sevinci bilər,
Bir tək kədərimə sevinməz ora.

Tapmaq istəyirəm ömür bitməmiş,
Bəxtimin gələcək səadətini.
Çıxmaq istəyirəm yerin oxundan,
Yarmaq istəyirəm cazibəsini,
Heç mənim qədrimi bilmədi bu yer.

Qoy məni bu yerdə axtarmasınlar,
Adım ürəklərdə silinib-getsin.
Saxta yer üzündə, saxta adamlar,
Mənim yoxluğumla barışıq etsin.

30.01.2011

ƏSGƏRLİK DÜŞÜNCƏLƏRİ

Bu gün pəncərənin önündə
xəyallar qapımı döyüb,
ağlamağa başladı.
Sıx-sıx tutub qollarımdan
buraxmadı yaxamı
xatirələr dalğası.
Yadıma iyirmi illik həyatımın
sevinci, qəmi düşdü.
Zaman nə tez keçdi,
nə tez ötüşdü.
Əsgərliyin soyuq günlərində
atamın isti nəfəsi
Qorudu məni şaxtanın soyuqluğundan.
Anamın şirin səsi
qəzəbli qışqırıqların
yerini tutdu.
Gülərüzlü sevgilimin cizgiləri
kinli-kinli baxışların
nifrətini unutdurdu.
İndi anlaya bildim
keçən günlərimin mənasını.
Pulun qədrini
pulsuzluqda bildim.

Dünyaya açıq gözlə baxmağı,
pisliklәri, yaxşılıqları
seçə bilməyi
burda öyrəndim.
Hər günü cəsarət tələb edən
əsgərlik illərində.
Mən hər şeyi anladım,
kövrək qəlbimin uşaqlığına
ağladım.

31.08.04

GÖZÜNÜ YAXŞI AÇ

Gözünü
dünyanı görüb
tanıya biləcəyin qədər aç.

Aç,
yaxşı bax,
ikiüzlü dünyanın
ikiüzlü insanlarına.

Bir üzü ağ,
bir üzü qara dünyanın
ağında nə gördün ki?!...
İlanın ağına da lənət demişlər,
qarasına da.
Bağlama, gözlərini
dünyanın rəngli tamaşalarının
səhnəciklərinə.
Özü olmayan aktyorların
oyunlarına yaxşı, bax.

Bax və
unutma,
hər şeyi unudulacaq olan dünyanın

unudulmazlarını.
Toz basmasın sinənin
təmizliyini,
nuru azalmasın bəbəklərinin.
Yaxşı bax,
yaxşı olmayan dünyaya.

"Can" deyib, "can" eşitməyənlərin
cansız ürəkləri qədər
ölü dünyanın
səmimiliyinə inanma.

Tutmasın gözlərini
gözə şirin görünən
görülməzlərin acılığı
və
beləcə
aç gözünü, bağlama,
dünyaya yaxşı bax ki,
peşman olub ağlama.

03.03.2011

NƏYİ İTİRMİŞƏM TAPA BİLMİRƏM

Nəyi itirmişəm tapa bilmirəm,
Axtara-axtara gəzirəm elə.
Bəlkə tapdığımı itirmişəm mən?!
İtirə-itirə dözürəm elə.

İtirə-itirə dözürəm elə,
Yerini verərmi tapacaqlarım.
Küsüb bu dünyadan bezirəm elə,
Bəs niyə azalmır umacaqlarım?!

Bəs niyə azalmır umacaqlarım?!
Nəfsim, tamahım da dayana bilmir.
Məni anlayacaq duyacaqlarım?!
İçimin özü də anlaya bilmir.

İçimin özü də anlaya bilmir,
Özüm-öz içimdə gizli qalmışam.
Nəyi itirmişəm o tapa bilmir,
Bəlkə öz-özümü oğurlamışam.

Bəlkə öz-özümü oğurlamışam,
Hakim də özüməm, oğru da özüm.
Mən ki, nağıllara inanmamışam,
Uyduran da özüm, doğru da özüm.

06.03.2011

QADIN

Qadın insanları doğuran ana,
Qadın insanlığın başının tacı.
Böyük hörmət ilə yanaşın ona,
Ürəyi görməsin nə kədər, acı.

Qadınsız olmasın bir ev eşik də,
Qadınsız evlərin nə yaraşığı.
Hər bir çətinlikdə, hər keşməkeşdə,
Qadındır kişinin arxa, dayağı.

Zəif yox, zərifdir onun xisləti,
Bir soyuq baxışla qırıla bilər.
O qədər ucadır qadın xilqəti,
Yeddi qat göylərə ucala bilər.

Qadın insanlığın ilki, əvvəli,
Qadın yaradanın möcüzəsidir.
Şirin danışığı, bal dadan dili,
Dünyanın ən gözəl zümzüməsidir.

2007

ADLAR

(Uşaqkən adların insan yaşlandıqca dəyişəcəyini sanardım)

Uşaqkən adların
adamlar yaşlandıqca dəyişdiyini
sanardım.
Tez-tez sual verərdim valideynlərimə
filan adların uşaqlara,
filan adlarınsa böyüklərə
məxsus olduğunu.
Adlar yaşlara uyğun gəlmədikcə
təəccüblənərdim.
və beləcə adları
düşüncəmə görə
yaşlara uyğun bölərdim.
Cavan üçün
və
qocalar üçün adlar.

Yaşlaşdıqca anladım
uşaq düşüncələrimin yalnışlığını.

Nə öz adım dəyişdi,
nə də bir başqasının.
Dəyişənin adlar yox,
adamlar olduğunu bilincə də
heç sevinmədim.
Adların adamlardan
daha vəfalı olduğunu bilmək
yandırdı məni.

24.03.2011

YAZILAR

Yaşamadan yazmaq olmur heç nəyi,
yazmaq üçün yaşamalısan həyatı,
nə az, nə çox
yaşamağı bacardığın qədər
yaşamalısan.
Acısı,
şirinliyilə
sevməlisən yaşamı.
Hər şey öz rəngiylə
daxil olmalı yazılarına,
qarasıyla,
ağıyla.
Hər şeyə öz dəyərində
qiymət verəcək qədər
təmiz olmalı duyğuların.
Süniliyi ortaq etmə yazılarına,
süniliyi sevməz yazılar.
Yaşamadıqlarını yaşatdırma
yazılarında.
yaşamın özü qədər
gerçək olmalı yazıların.
Yazılar da səni,
aynadakı əksin qədər

aydın göstərməli,
böyüklüyü,
kiçikliyilə.
Yazıların da insanlar kimi
özü olanda
gözəl olduğunu unutmamalı,
gözəlliyi,
kifirliyi ilə
gözəldir yazılar.

31.03.11

DÜŞMƏN BİLƏCƏK...

Bir gün nə qədər qüdrətimiz, qüvvətimiz var,
Düşmən biləcək, məhv olacaq, ağlayacaqdır.
Səbir elədik, səbrimizi "qorxdu" sananlar,
Aldanacaq, kor gözünü tam açacaqdır.

Düşmənimiz titrəyəcək nərə səsindən,
Bir ərimiz yüz yağını susduracaqdır.
Dəryalara hökm eləyən od nəfəsindən,
Ermənіyə əmdiyini qusduracaqdır.

Bir gün gələcək qəhr edəcək düşməni ordum,
Dünya duyacaq, yanğımızı anlayacaqdır.
Bir gün gələcək tam güləcək Azəri yurdum,
Düşmən baxacaq, öz-özünü danlayacaqdır.

07.05.2011

QƏRİBƏ

Hər gün ağlayan adamın,
Bir gün gülüşü qəribə.
Bu dünyada var olanın,
Doğuş, ölüşü qəribə.

Həyat başdan-başa ağı,
Qara yazır başdan ağı,
Sinəmizə çəkən dağı,
Alış, verişi qəribə.

Hər insan öz gümanında,
Bir ömür-gün zindanında,
Qonaq gəlib, qonağında,
Gəliş, gedişi qəribə.

Dünya özü qəm içində,
Gözü yaşlı, nəm içində,
Bu boyda aləm içində,
Yerin duruşu qəribə.

Şeytan mələk biçimində,
Fələk yanır öz içində,
İnsanların seçimində,
Doğru, yanlışı qəribə.

18.07.2011

MƏN ARTIQ "YER" ADLI YERDƏN KÜSMÜŞƏM

Mən artıq "Yer" adlı yerdən küsmüşəm,
Küsmüşəm bir daha barışmaram da.
Yerdə yaşamışam, yaşamamışam,
Fərqi yox ölərəm yaşamaram da.

Yerdən uzaqlara götürün məni,
Götürün "Yer" adlı bu məmləkətdən.
Yerdə yox göylərdə bitirin məni,
Bəlkə Yer utana xəcalətindən.

Yermi utanacaq, utanmayacaq,
Utansa nə olsun, utanmasa nə?!
Yerin bir sakini qayıtmayacaq,
Doğulduğu yurdun, yerin yerinə.

16.08.2011

ZAMAN...

Hər şeyin üstündən xətt çəkən zaman,
Nə tez də unudar yaşananları.
Əvvəli bilinməz, sonu bilinməz,
Zaman özü bilər zamanlarını.

Zaman bizə görə bölünər, gedər,
Gedən zaman deyil ömürdü, gündü.
Doğulan insandı, qocalan insan,
Zaman qocalmayan sirdi, üründü.

Günahı zamanın üstə atanlar,
Bir anın içində əriyəcəkdir.
Zaman qədri bilib zamansızlaşan,
İnsanlar zamanla yüksələcəkdir.

01.10.2011

MƏLƏKLƏRİN GÖZ YAŞI

Mələklərdə ağlayır inanımmı buna mən?!
Mələyin göz yaşları nədən axır, görəsən?!
O mələk ki, əbədi, daimidir varlığı,
Kimsə dərk edə bilməz bu böyük ucalığı.
Mələklər ki, kədərdən, qəmdən uzaq yaranmış,
Bu, necə ziddiyyətdi, mələklər də ağlarmış.
Səbəb nədir mələyin gözündəki yaşlara?
Bu sualı verirəm cümlə-yaranmışlara.
Düşündüm çox, düşündüm sonsuz oldu gümanım,
Bu qədər səbəblərin mən hansına inanım.
Gümanımı, zənnimi belə verdim mən sona,
Mələklər ağlayarmış Adəm oğlu insana.
Yarandığı zamandan günah etdi bu insan,
Törətdiyi əməllər, nöqsan doludur, nöqsan.
Nədəndi cümlə-bəşər yüz qat günah eylədi?!
Mələklər bu səbəbdən göydə "eyvah" eylədi.
Mələyin göz yaşları yuyarmı günahları?!
Açarmı üzümüzə işıqlı sabahları?!
Bunu deyə bilmərəm, mələklər də deyəmməz,
Yaradanın sirrini ondan özgə biləmməz.
Mələklərdə ağlayır, kimsə yalan sanmasın,
İnsan üçün göz yaşı tökdüyünü danmasın.

2008

VARLIĞIMDA İTƏN ZAMAN...

Varlığımda əriyərək itib zaman,
qeybə çıxıb,
bitib zaman.
Dünən,
bu gün,
sabah yoxdur yaddaşımda...
Əqrəbləri bir nöqtədə dayanıbdır saatımın,
cavanlığı,
qocalığı
yoxdur mənim həyatımın.
Mən zamana ram deyiləm,
zaman mənim öz əlimdə.
Zamansızlıq yaşayıram
varlığımın daxilində.

30.11.2011

FATİMƏM

Dünyaya yenicə göz açan, qızım,
Evimə günəş tək nur saçan, qızım,
Artıq yavaş-yavaş dil açan, qızım,
Allah kömək olsun sənə hər zaman,
Həyatı sevinclə sən yaşayasan.

Qəlbində daima xoş niyyət olsun,
Tükənməz bir sevgi, məhəbbət olsun,
Sənin görəcəyin səadət olsun,
"Allaha şükür"ünü azaltmayasan,
Onun nemətini unutmayasan.

Kiçikkən nəsihət etmədim demə,
Arzumdur, ömründə zərrə qəm yemə,
Mənim canım, gözüm, gülüm Fatimə,
Adını mən verdim, ömrünü Allah,
Sən elə yaşa ki, deyim "maşallah!"

2008

ÖRNƏK SƏNƏT SAHİBİ

(Mahilə müəlliməyə ithaf edirəm.)

Hər kəsin dünyada bir sənəti var,
İşiylə fəxr edir hər bir sənətkar.
Biri mühəndisdir, biriysə həkim,
Biri aqronomdur, biriysə hakim.
Bütün sənətlərin başında ancaq,
Müəllim sənəti ilkin olacaq.
Hər kəs öyrənibdir ondan sənətin,
Müəllim gözüdür bəşəriyyətin.
Çoxdu bu dünyada müəllim olan,
Mahilə müəllimə biri onlardan.
Sevib öz işini ürəkdən dərin,
Gözəl yetişdirir tələbələrin.
Sonsuz bilikləri verib onlara,
Yol açır savadla ucalanlara.
Hamının qəlbində böyük yeri var,
Necə bəxtəvərdir kamil olanlar.
Hər zaman örnəkdir tələbələrə,
Alqış, alqış olsun azı min kərə!

SƏNİ GİZLƏMİŞƏM...

Səni gizləmişəm anandan belə,
Atan da nə bilsin haralardasan.
İstəsən üstümə məhkəmə gələ,
Haradan bilsinlər haralardasan.

Səni tapmayacaq rəfiqələrin,
Üç günə, beş günə unudacaqlar.
Hər şeyi saxtadır özgələrinin,
Bir gün sənsiz belə yaşayacaqlar.

Məni izləyəcək hər addımbaşı,
Qardaşın yolumda sürünəcəkdir.
Məndə qınamıram yazıq qardaşı,
Harada gizlisən nə biləcəkdir.

Səni soracaqlar gəlib-gedəndən,
Heç kəs bilməyəcək yerdə-göydəsən.
Bir sirri açıram özlüyümdə mən,
Qoy heç kəs bilməsin... ürəyimdəsən.
Qoy heç kəs bilməsin... ürəyimdəsən.

01.05.2011

SEVGİLƏR VƏ NİFRƏTLƏR...

Sevgilərin məhv olduğu yerdə
nifrətlər başlar.
Nifrət edə bilməyənlərin,
düşünməyi belə bacarmayanların,
dil açar ürəklərində
sevgi tumurcuqları.

Nifrətlərin baş alıb getdiyi yerdə,
sevgilər ayaq tutub yeriməz.
Ayaq tutub yeriyənlərin
dabanları əzər sevgi çiçəklərini.
Tikan bitirər izləri
nifrət elçilərinin.

Sevgilərin ucuzlaşdığı yerdə
nifrətlər bahalaşar.
Qan tökər su yerinə
göz yaşları.
Günbəgün artar sayı məzar daşlarının
ümidlər ölər
ümidsizliyin fəth olunduğu
xarabalıqlarda.

Nifrətlərin güləcəyi yerdə
sevgilər ağlaya-ağlaya
yolar vaxtsız ağarmış saçlarını.
Bir üzü tərs düşər həyatın,
başlanğıcdan sona doğru yolun
qarışıqlığında
azdırar yolunu
sevgi sərnişinlərinin.

15.02.2011

YOXSULLUĞUN SƏN ÜZÜ...

Yox
sən anladığın kimi
maddi cəhətdən deyil mənim yoxsulluğum.
Hər günümü şükür etməklə
bitirdiyimi də, yəqin ki,
heç unutmamısan.
İnsanların istəmədikləri adamı
ömür boyu unutmadıqlarını da
bilməyəcək qədər yoxsul deyiləm ağıldan...
Yoxsulluğun o qədər üzü var ki...
və
nə biləsən
hansı yoxsulluqdan danışdığımı...
O yoxsulluq ki,
bəlkə
heç zaman görməmisən,
ya da yel kimi keçib getmiş yanından
hiss eləməmisən,
çünki
o qədər həssas olmadığını,
olanları mənim kimi duymadığını
özün etiraf etmişdin mənə
yadındamı?!

Yoxsulluğumun nə qədər əzab verdiyini
anlamayacaq qədər yoxsuldu ürəyin.

Yoxluğundan yaranan
yoxsulluğumun varlığını
haradan biləcəksən ki?!

Daş ürək desəm sənə...
yox bu sözümlə xətrinə dəyərəm daşın,
çünki o, sənin qədər yoxsul deyil ürək sarıdan...
yoxsulluğumu anlamaqda
daşın səndən daha yaxşı duyacaq qədər ürəkli
olduğunu
haradan biləcəksən ki?!

Yoxsulluğun sən üzü
heç zaman açılmayacaq üzünə,
bağlı qapılar ardında
yoxsulluğunu görməyə-görməyə
kor-koranə
yaşayacaqsan həyatı...

Yoxsulluğumun yoxluğundan yarandığını,
duymadığın kimi,

sənin də öz yoxsulluğunu görməyəcəyindən
əmin olduğum üçün
bəlkə
qınamağa haqqım yoxdur səni
və
bunun üçün BAĞIŞLA MƏNİ!
BAĞIŞLA MƏNİ!

29.08.2011

SƏNƏ GÖRƏ

Sənə görə yaşamıram həyatı,
Səndən öncə də yaşamışdım,
yaşayıram, yaşayacam.
Həyatımı sənə görə yaşayıram deyənlərin
dili şirin dilbazların,
bazlığından uzağam mən.
Kimə görə soyuqqanlı,
Kimə görə uşağam mən,
Hər nəyəmsə özgə deyil,
özüməm mən.

Sənə görə yazmayıram hər şerimi,
Hər şerdə bir insanın həyatı var.
Bir ürəyin döyüntüsü,
Bir sevginin ovqatı var.
Hər oxuyan özün duyur,
Özün sanır,
Mən yazdığım şerlərdən,
Neçə insan duyğulanır.

Sənə görə bilməyirəm necəyəm mən
Yaxşıların yaxşısımı,
ya pislərin pisiyəmmi?!

İkincidən olsam yenə minnətdaram,
çünki orda yenə mənəm,
özüm varam,
özüm özüm olmağımla
mən özümə minnətdaram...

12.07.2011

BU GECƏ HƏSRƏTİN ÖZÜNDƏN BÖYÜK

Bu gecə həsrətin özündən böyük,
Sənin böyüklüyün kiçilir daha.
O qədər böyükdür çiynimdəki yük,
Çəkisi göylərlə ölçülür daha.

Nə bir əlim yetir tutam endirəm,
Dərdimi göylərin ucalığından.
Nə bir gücüm çatır, sənə göndərəm,
Sevən ürəyimin çırpıntısından.

Əlimdə deyil ki, istədiklərim,
Hər nə istəyirəm, gedir əlimdən.
Sənə deyiləsi demədiklərim,
Min dəfə şirindir dediklərimdən.

Bu gecə "həsrət"dir nəğməmin adı,
Bu elə nəğmə ki, qurtarmayacaq.
Axı mən olmazdım, o olmasaydı,
O yoxsa, Habil də yaşamayacaq.

19.11.2010

HƏSRƏT NƏĞMƏSİ

Bir həsrət cücərir içimdə mənim,
Cücərib-cücərib yetişər bir gün.
O, özü böyüyər kiçikliyindən,
Böyüyüb göylərə yetişər bir gün.

Əlim çatmayacaq ətəklərinə,
Həsrətim özümdən böyük olacaq.
Durub baxacağam altdan-yuxarı,
Baxdıqca gözümü qamaşdıracaq.

Bir həsrət qanıma işləyir mənim,
Gün gələr, beynimə sızıb öldürər.
Mənimlə birlikdə ölən həsrəti,
Mənimlə birlikdə Tanrı dirildər.

Bir həsrət əbədi sirdaşım olar,
Kölgə tək arxamca izləyər məni.
Hər yerdə yolumun üstündə durar,
Həsrət həsrət ilə gözləyər məni.

08.10.2010

GİZLƏNPAÇ...

Uşaqdıq
nə qədər qayğısız idik
gizlənpaç oynayardıq
mən,
    sən
və
birlikdə ikimiz.
Sayardım düz birdən əlliyə kimi,
sənsə gizlənməyə yer axtarardın.
Harada olsan da, tapardım səni
sevinərdim ərköyün uşaqlığımla
tapmamaq ağlımdan keçməzdi onda.
Amma nə biləydim
bir gün gələcəyini
və
o bir gündə səni əbədi itirəcəyimi
nə biləydim mən yazıq.
Gizlənpaç oynaya-oynaya böyüdük,
böyüyə-böyüyə itirdik
bir-birimizi.
Uşaqlıq illərinin qayğısızlığını,
ötən günlərin əvəzedilməzliyini
gələn günlərin soyuqluğunda

anladıq.
Gizlənpaç oynaya-oynaya
bir gündə yumarkən gözlərimi
daha tapa bilmədim.
"Həyat" adlı oyunda
əbədi itirdim səni.

20.09.10

BOYAT XATİRƏLƏR

Beynimin hər hansı bir guşəsində
boyat xatirələr toplanıb.
Və
bu boyat xatirələrin bir qismi,
ikimizin arasında yaşanan
"sevgi" adlı bir duyğunun
həyatımızda olan
və
yazısı
heç zaman
pozulmayacaq
nişanəsindən ibarətdir.
Bir mən bilirəm bu yaşantının
nədən ibarət olduğunu
bir də sən...
Ancaq heç birimizin bilə bilməyəcəyi
tək bir şey var,
kim çox sevdi, görəsən,
sənmi ya mən?!

Xatirələr boyat olsa da,
illər öncəsi sevgini andırsa da
xatirələr.

Dəyişməyən,
boyatlaşmayan,
sabit qalan
bir sən varsan beynimdə,
beynimin hərəkətverici hüceyrələrində...
və
bu hüceyrələrin hər birində
adın yazılıb
bir ömür boyu unudula bilməyəcək
o altı hərfli adın...
Saxlamışam,
qorumuşam bu adı
beynimin ən uzaq guşəsinin
ən uzaq bir yerində.

Boyatlaşsa da xatirələr,
mən də, sən də
boyatlaşan xatirələrlə yanaşı
zaman axarında
qocalsaq da illər sonra
bir tək
boyatlaşmayacaq
sevgimiz var...
Əsl sevgiləri qocalda bilməz zaman.
Boyat xatirələr də

Həmişə cavan sevgilər kimi ölmür,
sadəcə, zaman keçdikcə
daha da boyatlaşır
və
boyatlaşdıqca
doğmalaşır,
ululaşır...
Boyat xatirələr
bizimlə birgə
bizdən xəbərsiz
yaşayır,
ölə bilməz.
Biz öləndə ölür hər şey
Hər şey biz öləndə ölür,
sadəcə.

27.08.2010

İTİRDİM

Getdin gözlərimdən,
gözümün pərdəsi qeyb olmuş kimi,
görmürəm daha,
görə bilmirəm.
Sadəcə, gedərkən toxunduğun zaman,
əllərinin soyuqluğu
üşütdü bədənimi,
bu qızmar bahar günü.
Ürəyinin soyuqluğunu demirəm hələ.
İtirdim səni
itirdiyimdən,
özümü də itirdim.
Nə səni, nə özümü,
axtarıb tapa bilmirəm,
adını qəlbimə,
hüsnünü gözümə yazdığımdan,
hər ikisi əzab verir mənə,
parçalayır məni.
Kaş yazılmamış pozulaydı
bu amansız yazı.
Necə qəribə olur,
sən demə,
alın yazı!

Sən məni özünə öyrətdiyindən,
daha çətin olur unudulmağın.
Unutmaq – deyilişi asan,
əməli çətin.
Kimlər unudub ki, saf məhəbbətin harayını
köz olub qəlbləri yandıracaq qədər yetərli
sanki bir vulkan.
Onun qarşısında
aciz hər insan.
Bir sənə yetmədi,
mənim bu naləm,
eşitsin aləm:
qəlbin yumşalmadı, daş olduğundan,
daş da yumşalarımı daş olduğundan.

2006

NƏ YAXŞI...

Bu sənsənmi?!
Sənsənmi gələn?!
Deyəsən,
səsini eşidirəm mən.
Yaxınımdasan,
nə az, nə çox
üç-dörd addımımdasan.
Sevincdən gözlər yaşarır,
donur bədənim.
Deyəsən, yenidən qayıdır sənli günlərim.
Xəyallar gərçək olur,
boşuna ümidə qapılmamışam.
könül sevincək olur.
Nə yaxşı mən səni unutmamışam.
Nə yaxşı qapıdan girirsən yenə,
o zərif səsini eşidirəm mən.
Baxıb gözlərinin dərinliyinə,
sevda yollarına düz gedirəm mən.
Sən mənə dönürsən,
deyəsən, gözlərim aldadır məni.
O qaynar nəfəsindən
Bədənim hiss edir hərarətini.
Bu yuxuya bənzəmir,

yuxular belə olmaz.
Həqiqətin özüdür,
sevən ürək yanılmaz.
Nə yaxşı yenidən görüşürük biz
Allah da bizlərin sorağındadır.
Yaddan çıxmayıb ki, öpüşlərimiz
istisi hələ də dodağımdadır.
Gözlədim yolunu illər uzunu,
bilirdim sonunda qayıdacaqsan.
Keçmiş hisslərimi, duyğularımı
yenidən sən mənə qaytaracaqsan.
Qayıtdın sən mənə məhəbbətinlə
dalğalar sahilə qayıdan kimi.
İnandım eşqinin bütünlüyünə
qulun Allahına inanan kimi.

04.09.05

ÇİÇƏK VƏ QIZCIĞAZ

Hər səhər bir qızcığaz,
    çiçəkləri dərə-dərə qoxulayardı.
və
qoxulaya-qoxulaya
çiçəklərin arasında uzanardı.
Sonra,
    sonra isə
topladığı çiçəklərə
həzin nəğmə deyərdi.
Bir sözlə, bu qızcığaz
çiçəkləri çox sevərdi
və
çox sevdiyi üçün də onları dərərdi.
Ona görə dərərdi ki,
bir başqası bu çiçəkləri dərə bilərdi.
Əks təqdirdə bu qızcığaz,
çiçəklərin həsrətindən ölə bilərdi.
Qızcığaz çiçəkləri sevə-sevə yaşayar,
onlardan zövq alardı
və
bu zövqü itirməkdən qorxardı.

Hər səhər... yox
daha "hər səhər" deməyəcəm.

Bir səhər bu qızcığaz,
daha çiçəklərin arasında görünmədi.
Sanki çiçəklər belə
bu səhərin gəlişinə sevinmədi.
Hər səhər çiçəkləri dərməkdən zövq alan
qızcığaz
indi özü dərilmişdi.
Dərilməsə, kimi isə həsrət ilə
məhv edə bilərdi.
Kimməsə zövq vermək üçün
qoxulanacaqdı.
Ona da həzin nəğmələr oxunacaqdı.
çiçəklər də tər qoxulu,
qızcığaz da tər qoxulu,
hər ikisi bir qoxulu.

Qızcığaz nəyi isə itirməkdən çox qorxsa da,
kimi isə yaşatmağa doğulmuşdu.

29.02.08

HƏSRƏTİN ÖZÜNDƏN BÖYÜK

Həsrətin özündən böyük,
Vüsalını dadmamışam.
Qanqal dolu yollarını,
Ayaqyalın adlamışam.

Günlərimin dadı zəhər.
Sevincimdən qoxu gəlmir.
İllər kəsib aramızı,
Zaman durub, irəlləmir.

Hər gecənin sonu ümid,
Hər səhərin üzü qara.
Yaşamağa maraq itib,
Üz tuturam məzarlara.

Həyat sənsiz ağladıcı,
Xəyallardan nə çıxacaq.
Bu könlümün ehtiyacı,
Hicranın məni yıxacaq.

2008

BİR KÖRPƏCİK SEVİNC...

Bir körpəcik sevinc sənə,
Həsrət qalıb ürək yenə.
Sevinc məndən uzaq gəzir, qıraq gəzir,
Uçub gedib özgələrdə qonaq gəzir.
Hara getsəm axtarıram öz incimi,
Baxışları həyat dolu sevincimi...
Bir körpəcik sevinc harda?!
Tapmaq olmur,
yaxınlarda,
uzaqlarda.
Yaxın ikən uzaqlaşır çatmaq olmur,
Bircə dəfə yaxınlaşmır tutmaq olmur.
Bir körpəcik sevinc mənə,
Qonaq gəlsən nə olar ki?!
Sevinc dünyan dağılmaz ki?!...
Sevinc, səni gözləyirəm liman kimi,
Nə biləsən xəyal kimi,
güman kimi gözləyirəm
sevinc səni...
Bir körpəcik sevinc, dön gəl,
görən geri dönməyinə nədir əngəl?!
Sən yanımda olan zaman

Dəyərini bilmədimsə,
Sağa-sola xərclədimsə,
yerli-yersiz,
günahkaram,
Sən böyüksən...
Bir körpəcik sevinc sənə,
əl açıram dönə-dönə.
Gəl bağışla məni, sevinc,
bil, sevirəm səni, sevinc.
Bir körpəcik sevinc, sənə
həsrət qalıb ürək yenə.
Ürəyimi qırma, qayıt,
məni sənsiz qoyma qayıt...

29.07.2011

KÜLƏKLƏR...

Qorxuram küləklər sındıra səni,
Qorxuram vəhşilik edələr sənə.
Sən tərəfə əsən küləklərini,
Razıyam təbiət döndərə mənə.

Razıyam, küləklər məhv edib məni,
Bir tək telinə də, toxunmasınlar.
Təbiət ram edib küləklərini,
Bir də sən tərəfə buraxmasınlar.

19.07.2011

"CEYRAN" DEMİRƏM MƏN SƏNƏ ONDAN DA GÖZƏLSƏN

"Ceyran" demirəm mən sənə, ondan da gözəlsən
Gözəlliyin aldı mənim əqlimi, bilsən.

Sanma, gözəlim, gözəlliyi var eləyən sən,
Var eləyən gözəlliyi varlığa, əhsən!

Çox da özünü öyməginən gözəlliyinlə,
Bir gün solacaq al yanağın, çox da ki, gülsən.

Hərdən məni də sal yadına, bir nəzər eylə,
Yüz gələrəm sən tərəfə, bir dəfə gəlsən.

Habil yenə də dərdə düşüb yarın əlindən,
Olmaz bu qədər, bircə dəfə üzümə gül sən.

08.06.2011

SƏNİNLƏ BƏRABƏR OLMAQ...

Bir səhər səninlə görüşə çıxmaq,
Atmaq üst-başımdan kədər tozunu.
Bir gecə evinə ötürmək səni,
Sonrasa eşitmək "sevgi" sözünü.

Bir səhər minlərə çevriləydi kaş,
Minlərin arası kəsilməyəydi.
Gecələr bir daha yetişməyəydi,
Sənsə evinizə tələsməyəydin.

Hər işim yağ kimi gedəydi belə,
Arzular, xəyallar gerçəkləşəydi.
Bizləri ayıran o yollar ki var,
Bir gün bir ünvanda birləşdirəydi.

22.03.2011

AÇILMAYAN KİTAB

Könül kitabından siləcəm səni
adın da bir köhnəlmiş söz kimi,
bu kitabın arxivində qalacaq.
Heç zaman açmayacam bu kitabı.
Günlər,
illər keçəcək,
vərəqlər də saralacaq
açmayacam bu kitabı,
baxmayacam adına.
Son qoyacam bu sevgiyə
bu sevginin acığına.
Beləcə unudacam səni
və
o sənli günlərin xatirəsini.

Mən səni o qədər unudacam ki,
Gecələr əksini də görməyəcəm.
Yuxularda
bil ki, mənə
səndən heç nə qalmayacaq.
Yağış altda görüşlərin,
gizli-gizli öpüşlərin,
istisi də qalmayacaq dodaqlarda.

Mən səni o qədər unudacam ki,
bir zamanlar varlığına
Şübhə ilə yanaşacam.
Dünən səni sevirdimsə,
bu gün səni damla-damla,
zərrə-zərrə unudacam.

Sən mənə o qədər yad olacaqsan,
surətin də gəlməyəcək
gözlərimin önünə.
Sanki səni görməmişəm,
sevməmişəm bir an belə.
Təsəllilər verəcəyəm,
öz-özümə,
olmuşlara
gülə-gülə.
Səni "öldü" biləcəyəm,
məzarını diri-diri qazacağam,
yasını da tutacağam kor-koranə.
Nə bir həsrət çəkəcəyəm,
nə xəyala dalacağam.
Keçmişimi unudaraq,
gələcəyə baxacağam.

11.04.03

AXTARIRAM

Səni sənsiz gecələrdə axtarıram ulduzların arasında,
Hara getsəm yalnız səni axtarıram bu qızların arasında,
Ən qəribi, ən yadıyam yalqızların sırasında.
Nə qəribə taleyim var,
Tale mənə görk eləyib,
elə bil ki,
yazıların arasında.

Səni sənsiz könüllərdə axtarıram ürəklərin arasında,
Ümidimi, gümanımı axtarıram diləklərin arasında,
Ən gözəli, ən tərisən çiçəklərin arasında.
Dərd çəkənəm, qəm yeyənəm,
Ən rəhmli bir ürəyəm,
elə bil ki,
kövrəklərin arasında.

2002

NAZİK KİTAB

Nazik kitab,
fəqət oxunduqca qurtarmayan
bir kitab.
Hər səhifəsi bir dünya.
hər dünyanın
hər səhifəsi,
hər abzası
sənin gizliliyinin
ensiklopediyası.
Bu kitabı yaşaya-yaşaya
oxuyuram,
oxuya-oxuya yaşamıram.
Bu kitabın tirajı bir
və
ancaq
mənim üçün nəşr olunub.
Paylaşa bilmərəm bu kitabı,
bu kitabı heç kim tapa bilməyəcək.
Dünyanın ən məşhur mağazalarında,
arxivlərində
belə bu kitabın adı keçməyəcək.
Bu kitabı elə bir yerdə gizlədəcəm ki,
heç kim oxuya bilməyəcək,

duya bilməyəcək
bu kitabın gözəlliyini.
Bu kitabı oxumağa,
oxuyub da yaşamağa dəyər,
çünki bu kitab sənsən...
bəli yalnız
və
yalnız
sən...
Sən kitablaşa-kitablaşa yaşamayacaqsan,
yaşaya-yaşaya kitablaşacaqsan.

Nazik kitab kimisən,
oxunduqca qurtarmayan
bir kitab.

26.01.2011

ŞEHSİZ GÜL

Gözəl bir məkanda, gözəl bir yerdə,
Bir oğlan oturmuş tənha evində.
Yalqızlıq əlindən qəmə batarmış,
Nə bir dincələrmiş, nə də yatarmış.
Bir həmdəm yox idi dərdini bölsün,
Bir kəslə danışsın, bir kəslə gülsün.
Zaman gəlib keçir yenə bu oğlan,
Tənhalıq əlindən edirdi fəğan.
Oğlan düşünürdü, fikirləşirdi,
Sonra öz-özünə belə deyirdi:
Deyirdi, nə qədər ömürüm ki, var,
Yalqız qalacağam, bu bir aşikar.
Nə dostum olacaq, nə can yoldaşım,
Nəsilsiz qalacam, ağarır başım.
Bu cür fikirlərə o bata-bata,
Nifrət eyləyirdi ömrə, həyata.
Artıq tərki-dünya olurkən yazıq,
Möcüzə baş verdi açıqdan-açıq.
Laləzar içində güllərdən biri,
Çevrilərək qıza oldu bir pəri.
Üz tutub oğlanın evinə sarı,
Gəldi otağına bir gecə yarı.
Oğlan bu gözəli, görüncə həmən,

Ona aşiq oldu özü bilmədən.
Qəlbi həyəcandan tez-tez döyündü,
Üzünə-gözünə sevinc büründü.
Eşqin təsirindən key oldu başı,
Yox oldu üzündən axan göz yaşı.
Qızın da oğlana var idi meyli,
Biri Məcnun oldu, birisi leyli.
Sevənlər açaraq ürəklərini,
Bəyan eylədilər diləklərini.
İşvə-naz etməyə qız çox çalışdı,
Oğlan səhərədək yandı-alışdı.
Qızın axır sözü bu oldu ki, mən,
Səninlə razıyam fəqət bir şərtnən.
Mən bir gözəl güldüm, güllər içində,
Qıza çevrilərək olmuşam bəndə.
Gəzərək yamyaşıl çəmənlikləri,
Gəlmişəm yanına səndən ötəri.
Səhərə az qalır, artıq gedirəm,
Səni bir şeydən də agah edirəm:
Əgər sevirsənsə məni ürəkdən,
Gərək axtarasan güllər içrə sən.
Əlini bir dəfə yanlış uzatsan,
Şirin vüsalıma çatmayacaqsan.
Yenə çəkə-çəkə kədəri, qəmi,
Ahın bürüyəcək dünya-aləmi.

Özün bil, muradın öz əlindədir,
Daha söyləmə ki, bəxtdir, ya nədir.
Tapmasan vəfasız gəl bilmə məni,
Özün həll etməlisən öz məsələni.
Gedirəm "hələlik", ya da "əlvida",
Bəlkə görüşmədik bir də dünyada.
Oğlanın qəlbini aldı şübhələr,
Bir saatı oldu əsrə bərabər.
Səhər açılanda yola düzəldi,
Axırda güllərin yanına gəldi.
Diqqət yetirərək o, dörd bir yana,
Düşündü, hansıdır o gözəl sona.
Dedi, gecə evdə olubsa əgər,
Onun üzərində şeh zərrə qədər,
Ola bilməz axı bu bir həqiqət,
Mən onu tapacam, tapacam əlbət.
Elə ki, rast gəldi o şəhsiz gülə,
Uzatdı əlini kiçik ümidlə.
Ümidlər xəyal yox, həqiqət oldu,
Əlin uzatdığı həmən gül oldu.
Gül yenə çevrilib döndü bir qıza,
Bənzədi günəşə, parlaq ulduza.
Onlar qucaqlaşıb dəlicəsinə,
Əllərin verdilər biri-birinə.
Dünya gözlərində cənnətə döndü,

Ayrılıq həsrəti kül oldu söndü.
Məhəbbət aləmi çətindir yaman,
Onda çoxlu olur sınaq, imtahan.
Sevənlər, sizlərə budur məsləhət,
Sınaqdan yoğrulmuş sevgi, məhəbbət.
Kimlər bu sınaqdan çıxsa üzüağ,
Demək ki, qovuşub xoşbəxt olacaq.
Habil bu əsəri yazıb, bitirdi,
Gözəl bağlamanı şerə gətirdi.
Mənim bu şerimi duyub-anlayan,
Bilsin, sevənlərə etdim ərməğan.

03.01.2002

VƏ BİR DAHA

Və bir daha səni görə bilməyəcəyimi düşünərkən
anidən yuxularıma daxil olacağın gəldi ağlıma,
yəni ruhən görüşmək ümidi ilə yaşanacaqdı
qarşıdakı gecələr
və bitərkən sənlə keçən yuxuların şirinliyi
zülmət dolu acılarla açılacaqdı sənsizliyin
sabahları...
Heç vaxt gəlməsini istəmədiyim sabahlar
tək təsəllim sənli yuxuları mənə çox gördüyü üçün.
Nifrət edəcəkdim işıq dolu sabahlarıma.
Cansıxıcı olacaqdı gecəyə gedən yolların sənsizliyi
saat əqrəbləri donmuş kimi qalacaqdı gözlərimdə
və demək zamana sığmayan əbədiyyət olacaqdı
sabahlar.
Və bir daha səni görə bilməyəcəyimi düşünərkən,
anidən bir səs içimdən bağıraraq
gecənin gəldiyini müjdələyəcəkdi.
Ona verəcək heç bir şeyim olmadığımdan
quruca minnətdarlıq etməklə kifayətlənəcək
uşaq kimi sevinəcəkdim gecələrimin xoş qədəminə,
çünki o gecələrdə sənli yuxular,
görüşlər
və

öpüşünün hərarəti olacaqdı dodaqlarımda.
Hərarətdən qovrulacaqdım yuxularımda.
Ya bir gün,
dilim qurusun,
gecələr də xəyanət edib gətirməsə sən dolu yuxuları
mənə
nə olacaqdı sonum?!
Bunu düşünməyəcək qədər axmaq olduğumu
anlamamışdım,
ölümüm olsun...

01.11.2011

MÜHƏMMƏD (S.Ə.S)

Bu kainatın nuru,
Böyük fəxri, qüruru,
İnsanların şüuru,
Kamalısan, Mühəmməd!

Yolun ədalət yolu,
Ululardan da ulu,
Allahın sadiq qulu,
Rəsulusan, Mühəmməd!

Peyğəmbərlərin tacı,
Hər kəsin ehtiyacı,
Xəstələrin əlacı,
Dərmanısan, Mühəmməd!

Saniyənin bir anı
Gəzib ərşi-cahanı
Qabaqladın zamanı,
Zamansızsan, Mühəmməd!

İncilərdən incisən,
Hər şeydən birincisən,
Adəmdən də öncəsən,
İdealsan, Mühəmməd!

Əxlaqına söz olmaz,
Hansı sözün düz olmaz,
Üzün kimi üz olmaz,
Nur, camalsan, Mühəmməd!

Mədinənin gülüsən,
Şux şeyda bülbülüsən,
Kim deyir ki, ölüsən?!
Salamatsan, Mühəmməd!

Allah oldu köməyin,
Kama çatdı diləyin,
Min döyünən ürəyin
İlhamısan, Mühəmməd!

Dini islamı yaydın,
Quranı aydınlatdın,
Cahilləri oyatdın,
Danılmazsan, Mühəmməd!

İmamların atası,
Sünnət onun ətası,
Heç oldumu xətası?!
Qüsursuzsan, Mühəmməd!

2007

RAMAZAN

Ramazanı sevə-sevə yaşayan,
Ramazanın bitməsini qəm eylər.
Ürəyində Allah eşqi daşıyan,
Gözlərini səhər-axşam nəm eylər.

Ramazanda sima gülər, üz gülər,
Qədir bilən könül gülər, göz gülər,
Qəmli olan yüz sevinər, yüz gülər,
Mömin olan ramazanda dəm eylər.

Ramazanın imsakına oyanan,
İftarına səbir edərək dayanan,
"Allah" deyib eşqi-nura boyanan
İnsanlardan Tanrı dərdi kəm eylər.

Üç gecədən biri Qədir, bilinməz,
Kim deyər ki, pis günahlar silinməz,
Yaradana damla-damla gəlinməz,
Ona gələn varlığını cəm eylər.

Mühəmmədin orucunu sal yada,
Heç oldumu o orucdan dünyada,
Köməksizə Tanrı yetər imdada,
Qaranı ağ, zili isə bəm eylər.

Habil açar əllərini dərgaha,
Yalnız odur cavab verən hər aha,
Ümid varsa bu günümdən sabaha,
Uca Rəbbim hər günümə rəhm eylər.

2007

YALVARIŞ

Məni hidayətə yetirən, Allah,
Bu gözəl islama gətirən, Allah,
İşimi xeyirlə bitirən, Allah,
Məni xoş məqsədə, amala yetir.

Mühəmməd eşqinə bağışla məni,
Sağçılardan eylə, bağışla məni,
Müjdələ ehsanın yağışla məni,
Görməyə o hüsnü-camala yetir.

Dünəni bu günə qovuşduran sən,
Dərdimi-sərimi sovuşduran sən,
Ümmanı zərrəyə doluşduran sən,
Mənim də elmimi kamala yetir.

Sənin istəyinlə sənə gələrəm,
"Usandım" demədən yenə gələrəm,
Gün olar sonuncu günə gələrəm,
Məni axirətdə vüsala yetir.

Yana-yana gözlərimdə yaş sənə,
Gecə-gündüz səcdə edər baş sənə,
Bir an öncə qovuşaydım kaş sənə,
Məni rəhmətinə, cəlala yetir.

Həzrəti Mühəmməd başımın tacı,
Həyatı olubdur acıdan, acı,
Tükənməz könlümün bu ehtiyacı,
Məni o Nəbiyə, Rəsula yetir.

Əlim ətəyindən üzülü qalmaz,
Ruhum səndən bir an küsülü qalmaz,
Sevmədiyin nə var özülü qalmaz,
Məni istədiyin halala yetir.

2008

QƏZƏL

Sən dəxi candan da yaxınsan bizə,
Damarda qandan da yaxınsan bizə.

Kainatı yoxluqdan var eyləyən,
Günəşdən, aydan da yaxınsan bizə.

Gözümüzə işıq verən, nur verən,
Gözlərə nurdan da yaxınsan bizə.

Biz nə qədər zirvəyə çatsaq yenə,
Şöhrəti-şandan da yaxınsan bizə.

İstəyəndə bir anda məhv edərsən,
Zamandan, andan da yaxınsan bizə.

Eşqin ilə alovlanır könüllər,
Qəlblərə ondan da yaxınsan bizə.

Rəhmətindən uzaq qılma Habili,
Qohumdan, dostdan da yaxınsan bizə.

2008

"QURAN"DI

Milyon-milyon kitabların içində,
Ən müqəddəs, şahi-sultan "Quran"dı.
Əsrlərdir oxunması tükənməz,
Oxunduqca hey oxunan "Quran"dı.

Yaranışı kainatdan qabaqdı,
Möminlərə o arxadı, dayaqdı,
Yolsuzlara yol göstərən mayakdı,
Hər ayəsi sirri-pünhan "Quran"dı.

Vəhy edilib Mühəmmədə gələndi,
O, keçmişi, gələcəyi biləndi,
Möminlərə qucaq açıb güləndi,
Kafirləri alçaqlayan "Quran"dı.

Oxusam gözümə nur verər "Quran",
Şerimə ən gözəl söz verər "Quran",
Hər nə verər isə, düz verər "Quran",
Habilin qəlbini çalan "Quran"dı.

2008

İSLAMA DOĞRU

Allah haqqa çağırır, haqq özü İslamdadı,
Həqiqəti sevənlər gəlir İslama doğru.
İnsanlığın xilası dindədi, imandadı,
Hidayətə ərənlər gəlir İslama doğru.

Din elimə bağlıdır, elm dinə bağlıdır,
Ruh ilə can kimidir, bir-birinə bağlıdır,
Hər kəs İslama bağlı, sevdiyinə bağlıdır,
Sevgini dərk edənlər gəlir İslama doğru.

Beş qitənin insanı bir amalda birləşir,
Qəlbi qara olanlar saflaşır, təmizləşir,
İslam heç qocalmayır, cavanlaşır, gəncləşir,
Gənclik qədri bilənlər gəlir İslama doğru.

27.10.10

ÖLÜM MƏLƏYİ...

Yaradanın dərgahından gəlmisən,
Canım səndən ərməğandı, Əzrayıl.
Bilirəm ki, can almağa gəlmisən,
Can almaqla yaşayandı, Əzrayıl.

Ocaqları o yandırar, söndürər,
Toyxananı yasxanaya döndərər,
Milyonları bir andaca öldürər,
Zamansızdı, məkansızdı, Əzrayıl.

Möminlərə xoş simada gülərsən,
Kafirlərə heybətinlə gələrsən,
Nə olubdu, nə olacaq bilərsən,
Öz işini bacarandı, Əzrayıl.

İnsan varsa, sən də varsan yaşarsan,
İnsan yoxsa, nə mənası yaşarsan.
Sən uzağı məhşərədək yaşarsan,
Gün gələcək, yox olandı, Əzrayıl.

Habil Yaşar doğulmuşam, öləcəm,
Son nəfəsdə Əzrayılı görəcəm,
Cəhənnəmə, cənnətəmi gedəcəm,
İlk xəbəri çatdırandı, Əzrayıl.

2008

KARA BULUT

(Türkiyə türkcəsində tərcümə olunmuşdur.)

Kara bulut,
Kara bulut,
Beni unut...

Kara bulut,
derdin-qemin
simgesi,
mezarların,
rengisin...
Karanlık taşıyorsun,
ak günleri
kara yıllara taşıyorsun.
Beşerin kanimisin.
ayrılık sen,
ölüm sen.
İztirap sen,
zülüm sen.

Kara düşerli olmur,
hetta karalara da

Kara bulut,
Kara bulut,
Beni unuturmusun?!

KABIRĞALAR...

(Türkiyə türkcəsində tərcümə olunmuşdur.)

Koca şehrin
karışık taş yolları
ufalanmış
sanki
yalnızca kabırğadan oluşan
vücudların
ayağı altında titriyor
ve onların
göklere açılı ellerinden
gökler de titriyor.

"Bir deri, bir kemik"den oluşan vücudların
kırış-kırış olmuş alınlarında
Zaman saklı,
kabarlı ellerin her açılıb-bükülmesi
zamanı gösteriyor.

"XOCALI HARAYI"

birpərdəli dram

(Azərbaycan ali və orta təhsil məktəblərində səhnələşdirilmişdir.)

Müəllif

İyirmi altı fevral... o mənfur gecə,
Nələr gətirmədi Azərbaycana.
Qərinələr keçə, əsrlər keçə,
Tarix bağışlamaz onu vicdana.

O gecə vicdanın susdu səsi də,
İnsanlıq adına ləkə vuruldu.
Dünyanın ən böyük müsibəti də,
O gecə yaşandı, matəm quruldu.

İyirmi altı fevral... Xocalı günü,
Günlərin qarası, günlərin pisi.
Yayıldı ərşə də, insanın ünü,
Allah bağışlamaz zülmkar kəsi.

Şəhidlər qürurlu ölümləriylə,
Tarixə ən böyük dastan yazdılar.

Dünya seyr eləyib öz gözləriylə,
İnandı, yoxsa ki, inanmazdılar.

Bir qadın

İlahi bu nədir? Bu dəhşət nədir?
Tarixdə görünməz müsibət nədir?
Qanlar axa-axa selə dönübdür,
Xocalı qanlı bir gölə dönübdür.
Bu gün cəhənnəmi yaşayıram mən,
Dözülməz əzabı daşıyıram mən.

Qoca kişi

Bir körpəyə baxın qolları sınmış,
İnsan da bu qədər zalım olarmış.
Yox daha dözmürəm, dözə bilmirəm,
Ayağım tutulub gəzə bilmirəm.

Ana

Gözlərim kor ola görməyəydi kaş,
Bədəndən ayrılıb tənha qalıb baş.
Uzaqda bir qızın gözü oyulub,
Biri dərisindən tamam soyulub.

Ah nələr çəkirəm, yanır bu ürək,
Sizin qisasınız alınsın gərək.
Hanı bu dünyada ədalət hanı?
Nə günə qoyarmış insan, insanı.

(Uzaqdan bir balaca uşaq ağlaya-ağlaya ata-anasının meyiti üstə qışqırır.)

Uşaq

Anacan, atacan niyə dinmirsiz?
Məni yalqız qoyub hara gedirsiz?
Sizsiz bu dünyada qalacam yetim,
Bilmirəm nə edim, mən hara gedim?

(Ağlayır.)

Cavan qız

Əlini mənə ver, ey qoca ana,
Qoy kömək eyləyim qaçaq bir yana.
Bəlkə xilas edə bildim mən səni,
Odur ki, mənə ver tez ol əlini.

(Uzaqdan bir əsgər qışqırır.)

Əsgər

Atın güllələri durmadan yenə!
Hamınız birlikdə, düşmən üstünə!
Ölsək şəhid olub ucalarıq biz,
Yaşarsaq sonadək vuruşarıq biz!

(Bu zaman bir neçə düşmən gülləsi əsgərə dəyərək onu yerə sərir və o, son nəfəsdə bu sözləri deyir.)

Unutmaz millətim, vətənim məni,
Yaşadan hər zaman yaşadar məni.
Hər kəs öləcəkdir, ölüm bir haqdır,
Vətənçün ölənlər yaşayacaqdır.

Ana

Öldü... bir əsgər də qəhrəman oldu,
Bir ömrə, həyata nöqtə qoyuldu.
Allah rəhmət etsin ölənlər sizə,
Həm mərhəmət etsin millətimizə!
Şəhidin məkanı əbədi cənnət,
Bunu dərk etsəniz böyükdür hikmət.

Qoca kişi

Öldün, ölümünlə ucaldın, əsgər,
Xalqımız hər zaman qədrini bilər.
Şəhidsən, sən uca bir zirvədəsən,
Bu xalqın, millətin ürəyindəsən.

(Elə bu anda qocanın yanına bir mərmi düşür və qocanın həyatına son qoyur.)

Başqa bir qadın

Ah düşmən, nə qədər acımasızsan,
Körpəyə, qocaya heç baxmayırsan.
Dağıdıb, taladın sən Xocalımı,
Səhraya döndərdin gülüstanımı.
Xocalım məhv oldu, dağıldı, Allah,
Bu günü yaşamaq ağırdı, Allah.

Cavan qız

Xocalım, qoy sənə baxım doyunca,
Bəlkə görüşmədik ömür boyunca.
Baxıram, Xocalım viran görünür,
Hər kəsin gözləri giryan görünür.

Yurdum toz-torpaqdan duman içində,
Xocalım yamandan-yaman içində.
"Erməni" deyilən ürəyi yoxmuş,
Zülmkar dünyada nə qədər çoxmuş.

İstərdim, yaşayım ağrı-acısız.
Neynərəm yaşayım mən Xocalısız.
Dağılsın bu dünya, dağılsın daha,
Çıxmaq istəmirəm onsuz sabaha.

(Bu an onu da güllə məhv edir.)

Ana

Ah, nələr yaşadıq, nələri gördük,
Öldüksə fərəhli ölümlə öldük.

Bir nəfər

Günahsız kəslərin məhv olmasına,
Bu gecə ağladı ulduz da, ay da.
Təbiət özü də qara geyindi,
Bir tək ermənilər güldü, sevindi.
Erməni bir quduz it imiş, Allah,
İnsanlıq adını itirmiş, Allah.

Əsgər

Bu gün bir sınaqda yaşadı xalqım,
Ən böyük kədəri daşıdı xalqım.
Qoy bilsin, eşitsin ermənilər,
Qisas qiyamətə qalmaz deyiblər!

Xor

Heç vaxt unutmarıq, Xocalım, səni,
Bir gün susdurarıq mənfur düşməni!

Müəllif

Nə qədər yazsam da Xocalıdan mən,
Milyonda birini yaza bilmədim.
Qan qoxusu gələn sətirlərimdən,
Səhvləri düzəldib, poza bilmədim.

ESSELƏR

ÖLÜM

(əcəl zəngi)

Ölüm... hər bir şeyin süquta uğrayacağı bir proses, fanilikdən əbədiliyə qovuşmanın başlanğıc nöqtəsi. O nöqtə ki, hər bir canlının taleyinə yazılan və pozulması qeyri-mümkün olan bir nöqtə. Yaradılmışların hər biri elə yarandığı dövrdən etibarən ona doğru gedir, yolun o biri tərəfində ölüm gözləyir hər kəsi. Ondan qurtulmaq mümkün olmadığı kimi, onun haqqında düşünməmək belə mümkün deyildir. Elə bir canlı yaxud hər hansı bir fərd tapa bilməzsən ki, ölümün varlığını bilə-bilə onun haqqında bir anlıq belə fikirləşməsin, düşünməsin "ölüm" adlı bir sonluğun mövcudluğunu.

Axı necə, necə ola bilir ki, insan oğlu bu qara qüvvənin varlığını dərk edə-edə ona biganə qalır, onu bir ömür boyu iztiraba döndərib özünə əzab vermir, istər az, istər çox, istər kədərli, istər sevincli yaşamaq istəyir, ancaq yaşamaq. Əcəl qapımızı döydüyü zaman insan üçün bir saniyə belə yüz illər qədər qiymətli və heç bir ölçüyə gəlməyəcək qədər şirin və əlçatmazdır. Nədəndir bu təzadın sirri, görəsən, nədəndir ölümün bizə hər an, hər saniyə ya-

xınlaşdığını duya-duya, yaşamaq, yaratmaq, bir sözlə, bizə verilən bu ömür payının heç bitməsini istəməyərək yaşamaq marağı, yaşamaq arzusu?!

Bir dəfə gəlir dünyaya insan və bu gün bir daha heç bir zaman təkrarlanmayacaq. Əvəzedilməzdir bu gün. Ondan başqa hər şey təkrarlanacaq. Ad günləri, bayramlar, işləmək, xülasə, eyni sevinc, eyni kədərlər. Ancaq bir şey təkrarlanmayacaq, yalnız bir şey... doğum günü... Bu gün həyat yolunda bizə verilən ən böyük, ən şirin ərməğandır. Acısı, qəmi olmağına rəğmən, kim doyub ki ondan. Bu gözəllikdən danışılan zaman bir məfhumun xəyala gətirilib, göz önündə azacıq canlanması belə yaradılışın qəlbini titrədir, onun cismini qan-tərə qərq edir, həyəcanlandırır.

Bu məfhum ölümdür. Ölümdən öncə əcəl döyür qapımızı, əcəl zənginin səsası gəlir qulaqlarımıza. O, bizlərdən, özümüzdən asılı olmayaraq elə zamanda yaxamızdan tuta bilər ki, nə bilim, ən sevimli çağımızda sevincimizi burnumuzdan gətirər, bizi bədbəxtliyə düçar edə bilər. Ruhumuzun dərinliklərinə işləyib ümidimizi sındıra bilər. Əcəl... qaçılması mümkün olmayan yeganə məfhum. İstər şərqdə ol, istər qərbdə, istər yerdə ol, istər marsda, haqlayacaq o, səni, mütləq haqlayacaq və haqladığı

zaman sənin yaşamına son qoyacaq, bu son sənin ölümün olacaq. O ölüm ki, sən onu fikirləşirdin, qorxurdun ondan.

Ancaq haqladı səni, yaxaladı. Sənə verilən ömür payı qırıldı. Bu günün sabahı gəlməyəcək, kölgən belə səni izləməyəcək bir daha, sənə hamıdan daha yaxın olan, sənin yaşama mexanizmin olan ürək belə səndən əl çəkəcək, döyməyəcək bir daha və sən olmamış kimi olacaqsan. Bunu da dərd etməyə dəyməz ki, bu yoxluq sənə acı verməyəcək. Çünki sən bir heç olacaqsan, yer üzündə ən xırda molekullar, ionlar olacaq, ancaq bir sən, yalnız sən olmayacaqsan. Bax, budur ölüm, bax, budur əcəl!

Elə budur insanı yandıran, qəmləndirən. Bunu öz-özündə həzm edə bilmir insan, danışmaq istəmir bu barədə. Nədənsə paxıllığı tutur yaradılışın bu cür məhv olmasına. Düşünəndə ki, ölümündən, bəli, məhz sənin ölümündən sonra həyat davam edəcək, günəş hər səhər yer üzünü salamlayacaq, ulduzlar parlaqlığı ilə sayrışacaq, dənizlərdə dalğalar coşub-çağlayacaq, quşlar ötəcək, bir sözlə, təbiət öz əlvanlığı ilə insanları, ümumiyyətlə, bütün canlıları məftun edəcək, necə qısqanmayasan bu gözəlliyi?! Bax, budur insanın acizliyini göstərən! Bunun sübutu isə ölümdür.

Ancaq yenə təkrar edirəm: ölümün var olmasını anlaya-anlaya yaşamaq istəyirik və yaşaya-yaşaya da hər an ona doğru getdiyimizi anlayırıq. Belə isə sual doğur: nədən yaşayırıq? Nədən bu həqiqəti dərk edə-edə yaşamaq istəyirik? Çünki yaşamaq arzusu, ölümə olan nifrət nisbətində daha böyükdür, daha qüvvətlidir. Belə isə yaşasın yaşamaq arzusu ilə yaşayanların varlığı!!!

2008

SEVGİ HAQQINDA ESSE

(Sevgini yaşayanların, bu nemətin qədrini bilənlərin sevgi dolu ürəklərinin xətrinə)

SEVGİ, sən elə bir duyğusan ki, insanların ən çox məhz sənə ehtiyacı var. Sən olan yerdə hər şey gözəl, hər şey ədalətlidir. Yaranışdan sənə olan ehtiyacı kim doldura bilib ki bizlərdə doldura bilək?!

SEVGİ, sən elə bir duyğusan ki, ömrümüzün hər anında, istər gənc ol, istər qoca bizləri izləyər və ansızın çağırılmamış qonaq kimi qapımızı döyə bilərsən. Kim səndən, "sən" adlı duyğudan sığortalana bilib ki?!

SEVGİ, səni yaşamayanların, səni bir heç sayanların, sənə istehza ilə yanaşanların canlı ola biləcəyinə necə inanmaq olar?! Hətta inanmaq belə çətindir "sən" adlı duyğunu yaşamayanların varlığına. Sənin varlığın bütün bəşəriyyətin varlığı olduğu kimi, sənin də varlığın bütün bəşəriyyətin varlığının əmanətidir.

SEVGİ, bəzən acımasız olmağınla bizləri yanıb kül edə biləcəyin qədər mərhəmətsizsən. Sənə məhkum ürəyimizə hakim kəsildiyindən sənə səcdə edə biləcəyimiz qədər zavallı oluruq biz. Məhz sən daş

qəlbləri yumşaldıb muma döndərə biləcək qədər sehrli bir qüdrətə maliksən və bu qüdrətinlə ən şirin sevgiyə maliksən, SEVGİ. Bu nemətin qədrini bilməyənlərin tutar gözlərini naşükürlükləri.

SEVGİ, sənə olan ehtiyacımız balığın suya, quşun uçmağa olan ehtiyacı nisbətində daha çox olacağının gümanındayam. Əslində, elə bütün ehtiyacların ilkin mənbəyi məhz elə sənsən...SEVGİ

SEVGİ, yaradanın belə ən çox sevdiyi nemət olduğunu unutmuruq biz...O da sənlə yaratdı kainatı, bizi. Səni ürəklərimizə bir nemət olaraq bəxş etdi yaradan. Bizi SEVGİ yaratdığından bizlər də sevgini qorumağa borclu olduğumuzu unutmuruq. Unudanlardan, əsla, olmaq istəmirik, Sevgi.

SEVGİ, sən zirvələrdəki qardan belə şəffaf olduğundan, həssassan, səmimisən, təmizsən. Çünki, sən pislikləri üzərinə götürə bilməyəcək dərəcədə günahsızsan, məsumsan. Məsum olmağınla daha da gözəlsən, SEVGİ.

SEVGİ, sən hər fəsildə öz donunu dəyişməyən bir ağaca bənzərsən. O ağac ki, isti-soyuq bilmədiyindən hər zaman sağlam olursan, heç bir təbibə möhtac olmazsan, əksinə, təbiblər özü möhtac sənə, SEVGİ.

SEVGİ, yazmadıqlarım yaza bildiklərimdən o dərəcədə çoxdur ki...Nə yazsam, bir o qədər yenə az, yenə yetərsiz olduğunu yaxşı bilirəm. Bəzən xəcalət çəkirəm yetərsiz cümlələrimlə səni qələmə almağımdan. Sənin şənini mədh eləməkdən. Bağışla məni, sözlərimin, düşüncələrimin səni mədh etməkdə bu qədər cılız olmasından dolayı.

SEVGİ, sən sənə möhtac olanların sevgisini ürəklərində qoyma, qırma onları. Rəhm eylə "sən" adlı duyğuya mübtəla olanların acizliyinə. Onlara sənin yolunda çəkdiklərinə kömək et. Kömək et ki, azalmasın yer üzündə SEVGİ tumurcuqları səpən insanların miqdarı. Bu miqdarın heç zaman azalmayacağı ümidi ilə sənə pənah aparırıq, SEVGİ...

04.03.2011

"AĞILLI "DƏLİ" ADAM"...

O, "dəli", "fərsiz" adlandırılmağına rəğmən, çoxlarından daha ağıllı, daha etibarlı idi. Yaşadığı mühit ona qarşı son dərəcə amansız davranır, onun hər dediyinə məsxərə edərək gülümsərlərdi. Ancaq bütün bunlara baxmayaraq, "ağıllı dəli adam" heç zaman digərlərinə qarşı nanəcib hərəkət etməz, ağıllı olduğunu bilə-bilə "dəli" adlandırılmağından zərrə qədər də utanmazdı. Utanılası heç nə olmadığını anlayan "ağıllı dəli adam" "ağıllılar" içərisində "dəli" kimi yaşayar və azacıq həyatının çoxlarına ibrət olacaq hadisələrlə bol olmasına rəğmən heç kim bunlardan dərs almazdı, dərs alması lazım gələn şeylərə isə görməməzlikdən gələrlərdi... Qəribədir "ağıllı dəli adam"ın gözəl keyfiyyətlərindən biri heç zaman yalan söyləməməsi, gələcəklə bağlı dediklərinin çoxusunun düz çıxması idi. Hətta o bir dəfə "ağıllı" adamların az qala rəğbətini qazanacaqdı, amma bu adamlar təkəbbürlük edərək "ağıllı dəli adam"ın dediyini, sadəcə olaraq, bir təsadüf kimi adlandırdılar və ona yenə də "dəli" ki "dəli" deməyə davam etdilər... "Ağıllı dəli adam"ın çoxlarına qeyri-adi görünən keyfiyyətləri çoxlarının yuxusu-

nu belə, ərşə çəkmişdi. Heç kimə bir pisliyi toxunmayan bir insanın (ağıllı ya da dəli fərqi yox) digərlərini bu cür narahat edən nə ola bilərdi, görəsən?! Bu sualın cavabını "ağıllı dəli adam" onlardan soruşsa belə tapa bilməyəcəkdi, tapa bilməsi belə mümkün olmayacaqdı. Çünki, özlərinə "ağıllı" deyən adamlar "dəli" adlandırdıqları adama nisbətən çox-çox ağılsız idilər və bu həqiqəti içlərində qəbul eləsələr də heç zaman dillərində təsdiq edə bilməzdilər. Bu təsdiq onların məğlubiyyəti olacağından heç kim bunu edə bilməzdi, etsəydi belə, o da "dəli" adlandırılacaq və ağıllı adamlar cəmiyyətindən tədricən təcrid olunacaqdı... (Milyonlarla "ağıllı" insanın "ağıllılar" cəmiyyətində yaşayaraq bütün ömrünü zavallı olaraq sürdüyünün, ağıllı adamlara pənah gətirərək onlardan ağıllı məsləhətlər almaq ümidi ilə yaşadıqlarının və bir gün bütün bu axtarışlarının heç bir faydası olmadığının şahidi olmuruqmu biz "ağıllı" adamlar?!).

"Ağıllı dəli adam" qısa ömrünün çox az hissəsini özünə həsr edərək yaşadı, bu da onun uşaqlıq illəri idi. Əslinə qalsa, onun uşaqlıq illəri belə, özünə həsr edilməmişdi. O, daima digər uşaqları düşünər, onların uşaq problemləri ilə maraqlanar, qayğılarına

qalardı. "Ağıllı" böyük adamlar bu uşağın qeyri-adi olduğunu düşünər, onun gələcəyi haqqında təzadlı fikirlər yürüdərlərdi... Bəziləri onu "kiçik dahi", bəziləri isə uşaqlıq psixologiyası yerində olmayan uşaq kimi qələmə verərdilər. Amma bu balaca "ağıllı dəli adam"ın bir günahı var idi, bu da onun digərlərinə nisbətən daha ağıllı, daha uzaqgörən olması idi. Daha bu balaca uşaq nə biləydi ki, zaman keçəcək, illər üstünə illər gəldikcə onu "dəli" adlandıracaq, dediklərini heç kimə gərəksiz söz yığını kimi rədd edəcəkdilər... Çünki, o "ağıllı" insanlara sərf etməyən, eyiblərini açıb göstərən biri olacağı üçün heç kəs tərəfindən qəbul edilməyəcəkdi.

"Ağıllı dəli adam" öz-özlüyündə bircə dəfə də olsun ailə qurmaq haqqında da düşünməmişdi. Ona görə ailə qurduqdan sonra dünyaya göz açacaq körpəsi "ağıllı" ola bilər və ona heç bir xüsusiyyəti ilə bənzəməyə bilərdi. Bu səbəbdən "ağıllı dəli adam" ailə qurmaq istəmirdi və bir tərəfdən də yaxşı başa düşürdü ki, hansı "ağıllı" adam öz qızını "dəli" adama verərdi ki?!... Əlbəttə ki, heç kim...

"Ağıllı dəli adam" insanlara hər şeyin ən yaxşısını tövsiyə edərdi, harada olursa olsun hər zaman haqqın tərəfdarı olardı. Qadınlara şəhvət gözü ilə

baxmamağı, kişilərə var-dövlət üçün ərə getməməyi, tacirlərin müəyyən olunmuş məbləğdən artıq üstünə qoymamağı, yetimlərin haqqını yeməməyi, hüquq məsələlərində ədalətli olmağı və s. kimi bir çox məsələləri digərlərindən tələb edərdi və tələb etdiyi üçün də hər kəs ona qeyri-adi, dəli insan kimi baxarlardı. Necə, hansı prizmadan baxmaqları onun vecinə deyildi, bu dünyanı vecinə almayan "ağıllı dəli adam" özü bildiyi kimi yaşamaqda israrlı idi. Çünki o, sözündən dönsəydi, onlar kimi "ağıllı" insan olacaqdı və "ağıllı" insan olmaq onu çox qorxudurdu... O, öz-özünə daima belə düşünərdi: "Məni qəbul etmirlər, etməsinlər. Özləri bilərlər. Amma mən də onların qəbul etdiklərini qəbul etməyəcəyəm...Əgər qəbul etsəm, demək, mən də "ağıllı" adamlardan biri olacağam və təbii ki, belə ağıllı olmaqdansa, olmamaq yaxşıdır... Yeganə təsəllim budur ki, mən onlara qalib gələ bilmədiyim kimi, onlar da mənə qalib gələ bilməyəcəklər... Yaşasın "ağıllı dəli adam" olaraq yaşamaq!" Həyatda bu şüarın nə qədər ki, "ağıllı" adamlar yaşayırlar, yaşayacaqlar heç zaman qəbul olmayacağını bilə-bilə yaşadı "ağıllı dəli adam" və ona görə bu şüardan gözəl şüar olmayıb, olmayacaqdı da...

"Ağıllı dəli adam" kəşməkəşli həyatda nə az, nə çox, cəmi otuz beş il yaşadı. Bu illər heç zaman onun iradəsini qıra bilmədi. O, doğulduğunda necə varsa, həyata da gözlərini eləcə qapadı.... Yəni saf, təmiz, günahsız...

23.08.2011

DAHİ...

Dahi... hər bir insanın ürəyindən keçən öndə gələn istəklərdən biri bəlkə də birincisidir dahi olmaq... İnanmıram həyatda elə bir insan tapıla ki, ömründə bircə dəfə də olsun bu arzunu xəyal etməsin. Əlbəttə, dahi olmaq milyonlar üçün sadəcə, bir istək olaraq da qaldığını unutmuruq. Bu ada layiq olanlar belə onun məsuliyyətindən heç bir zaman yaxa qurtara bilməyəcəklərini yaxşı anlayırlar. Çünki bu ada layiq olanlar milyonlar içindən seçildiklərindən milyonlara örnək olmaqla da görəvlidirlər. Dahilər yer üzünə əsrdə bir, milyonda bir doğulduqlarından və yaşadıqları mühitin aynasına çevrildiklərindən daha çətin olur onlara bu dünyada yaşamaq. Çünki onlar bir evin, bir obanın deyil də, bir məmləkətin, bir olan dünyanın sorumluluqlarını üzərinə götürən qeyri-adi şəxsiyyətlərdir. Məhz bu qeyri-adiliklə onlar digərlərindən fərqləndikcə fərqlənirlər. Dahilər bu adı həyatda qazanmırlar, doğularkən bu xüsusiyyəti özləri ilə gətirirlər və bu da onların bir missiyasına çevrilir.

Dahi olmaq istəyirsənsə, heç bir zaman dahi olacağını düşünməməli, bu ada sahib olmaq üçün çalışmamalısan. Bu ada sahib olmaq üçün sən ona

yox, o, sənə möhtac olmayıncaya qədər çalışmalı, sadəcə, çalışmalı yox, eyni zamanda, sözün əsl mənasında mübarizə aparmalısan. Hər etdiyin gözəl əməli, hər yazdığın maraqlı əsəri, qurub yaratdığın hər nə varsa bütövlükdə hamısını kiçik sanmağı bacarmalısan ki, gözəldən sonra ən sevimlini, maraqlıdan sonra ən heyrətamizi də tapa biləsən. Yoxsa etdiklərinin kölgəsində qalıb qürurlanmaqdan başqa heç nə edə bilməzsən, bu isə sənə heç zaman ucalıq gətirməz, əksinə, səni günü-gündən ucalmaqdansa, endirər, çünki sən kifayətlənib qaldığın yerdən etibarən geri addım atmağa başlayacaqsan və bu addım səni bu addan hər gün daha da uzaqlaşdırdıqca uzaqlaşdıracaq.

Dahiliyə gedən yol gərgin əmək və mübarizədən başlayır. Nə qədər istedadlı olsan, yenə əməyə, mübarizəyə möhtac olduğunu unutmamalısan. Bir şeyi də unutmamalısan ki, sən dahi olmağa inadkarlığının, güclü iradənin köməyi ilə ucala bilərsən. Dahilər atdığı hər addımda belə nələri isə ölçüb-biçir, nələri isə düşünür, nələri isə hətta özlərini belə amalları uğrunda qurban verməyə razılaşırlar. Əgər sən də dahi olmaq istəyirsənsə, o zaman bir çox şeylərdən keçəcəyinə, ancaq bu yoldan dönməyəcəyinə, sona kimi əzmlə mübarizə aparacağına inanmalısan. Məhz bu inam da sənə bu yolda kömək olacaq, səni yaşamağa, yaratmağa həvəsləndirəcək, içindəki istedadın üzə çıxmasına imkan verəcək. İnamsız gedilən yollardan bir şey gözləmək dahilərə məxsus olmayan xüsusiyyətdir və sən də dahi olmaq istəyirsənsə, inamlı, cəsarətli, əzmkar, mübariz ol. Əgər bütün bunlar sən də varsa, o zaman yola çıxmağın məsləhətdir, bu yolun səni işıq gələn tərəfə aparacağından əminəm... Mənə isə "Yaxşı yol" demək düşər , elə isə "Yaxşı yol"...

12.09.2011

ÖLÜMQABAĞI DÜŞÜNCƏLƏR

Son kərə zilləmişdi gözlərini saysız-hesabsız ulduzların tamaşasına və son dəfə ulduzların bu qədər uzaq, əlçatmaz olduğunu anlayırdı. Son dəfə ulduzlarla böləcəkdi bir ömrün hekayətini, yaşantısını və sanki son dəfə etiraf edəcəkdi ulduzlara səhvlərini, yanlışlıqlarını və bu səhvə doğru aparan səbəblərin inanılmazlığını.

Əlləri ovcunda lal-dinməz dayanaraq nursuz gözləri ilə sayrışan ulduzları yenə də nəzərdən keçirərək dilində nə isə pıçıldayırdı. O, nələri isə pıçıldayaraq nələrinsə ömrünə gizli gəldiyini, nələrinsə ömründən vaxtsız getdiyini düşünürdü və bir ömrün son akkordlarını vururdu ürəyi. O ürək ki bir ömür boyu sevmişdi, nifrət etmişdi, sevməyi də ,nifrət etməyi də öyrənmişdi həyatdan. Adam yaradılışın bu qədər gözəl olduğunu sanki heç duymamışdı əvvəllər, duymuşdusa da bu qədər hiss etməmişdi bəlkə də.

Adam ulduzlarla ünsiyyət qura-qura son dəfə ilham deyilən bu müqəddəs nemətin əsrarəngsizliyindən bəhrələnirdi, faydalanırdı. Necə deyələr, ölümqabağı yenə də onu tək buraxmamışdı, ona

ölümünə kimi sadiq qalmağa çalışmışdı. O ilham ki, bir ömür boyunca onu bir an olsun belə tərk etməmişdi, istər quruda, istərsə suda, istərsə də havada, harada olursa-olsun tək ilham olmuşdu onun ən sadiq, ən etibarlı dostu. Bəzi vaxtlar onu tənha qoymuşsa da, bu müvəqqəti bir ayrılıq olurdu və ondan uzunmüddətli küsməmişdi ilham. İlham da yaxşı bilirdi ki, bu adam onun dəyərini bilir, ondan layiqincə istifadə etməyi bacarır. O ilham ki, adamı ulduzlara belə aparardı, kainatın hər bucağında xəyali də olsa gəzdirərdi onu, gəzdirə-gəzdirə həyatı, yaradılışı sevməyi öyrədərdi. Ona kainatın necə bir gözəlliyə sahib olmasını və bu kainatın içində kiçik bir zərrə olan insanın da necə gözəl yaradıldığını bir daha anladardı ona...Ona öz qiymətini bilməyi, verilən ömür payını ucuz tutmamağı, bir sözləş, özünü tanımağın həyatda ən böyük nailiyyət olduğunu bir daha sübut etməyə çalışardı...(İnsan özünü yaxşı tanıyanda daha gözəl olar, elə deyilmi?!)

Bu gecə... məhz bu gecə bu adamın qismətinə düşən ömür günlərinin son gecəsi olacaqdı... Bir sonluqla yanaşı əbədiyyətin qapıları açılacaqdı bu adamın üzünə. Məhz bu yerdə adam öləcəyini, son

dəfə bu əvəzedilməz gözəlliyi seyr edəcəyini düşünə-düşünə üzündə anidən bir təbəssüm sezildi, bu, sevinc təbəssümü idi. Nədən doğdu bu təbəssüm, necə oldu ki, öləcək bir insanın üzündə səbəbi bilinməyən bir mehribanlıqla dolu sevinc təbəssümləri yarandı?!

Adam bu sonun heç də son olmayacağını, bu sonun özü ilə sonu olmayacaq bir başlanğıcın gətirəcəyini fikirləşərək sevindi, elə bil. Bayaqdan ulduzları narahatcasına seyr edən hal-əhvalından bir nişanə belə qalmamışdı daha. O anlamışdı. Ən böyük həqiqəti dərk eləmişdi. Dərk eləmişdi ki, kainat və ümumiyyətlə, bütün hər şey onun varlığından xəbər verir. Bir gündə hər nə varsa yenidən ona qayıtmalı və əbədi sonsuzluğa qovuşmalıdır. Kimlər üçünsə bu əbədi sonsuzluq zəhər qədər acı, kimlər üçünsə bal qədər şirin olacaqdı. Adam hələ heç zaman bu haqda düşünməmiş və düşünməyi belə heç ağlına gətirməmişdi. Adam ən yaxın dostu olan ilhamın belə Allahın ən sevimli bəndələrinə verdiyi bir nemət olduğunu düşünərək rahatlandı və sanki mələklər də ona ilham vasitəsilə demək istəyirdi ki, əbədi yolçuluğun son dayanacağındasan və bu

dayanacaq sənin kimiləri üçün çox rahat olacaqdı və sən bu gecə ona, rəbbinə qovuşacaqsan.

Adam son dəfə gözlərini göylərə, ulduzlara yönəldərək sevinc dolu ifadələrlə rəbbinə olan şükrünü bildirdi və adam pıçıldayaraq nə isə deməyə başladı və deyəsən, bir zamanlar əlçatmaz kimi görünən əbədiyyətə qovuşmağın bir addımlığındaydı...

2009

GÖZLƏRİ ÇIXMIŞ ÖLÜM...

(26 fevral Xocalı soyqırımında şəhid olanların əbədi ruhuna ithaf edirəm.)

Ölümün gözləri çıxmışdı, vəhşicəsinə öldürülənləri görə bilmirdi. O gecə şəhərin dörd bir yanı qorxunc kabusların məskəninə çevrilmişdi. Hər tərəfdə başsız bədənlərin, bədənsiz başların tükürpədici görüntüsü insana insanlıqdan bu qədər çıxmasını anladırdı. Havanın ölüm qoxuması, bayquşların belə canına vəlvələ salmışdı. Bayquşlar insanın bu qədər qəddarlıqla öldürülməsini görməmişdi, ya da görəcəyini belə heç ağlına gətirməmişdi. Ruhların bir-birinə qarışdığı məkanda, zaman belə öz yerində donub qalmışdı, heyrətindən nə irəli, nə də geri çəkə bilirdi əqrəblərini. Saniyələr belə işləmirdi ölüm qoxulu şəhərdə. Göz yaşları qana dönmüşdü, dünyaya barışı səsləyən göyərçinlərin. "Barış" adlı səslənişin heç bir faydası toxunmamışdı "insan" adı daşıyan "insancığazlara". Barış bu qədər rəzalətə düçar olmamışdı dünya yarananandan bəri. Yarasalar öz yolunu itirmişdi bu gecə, adi gecələrdə görməyə-görməyə heç bir maneə olmadan uçan yarasalar. Bu gecə o gecələrdən deyildi, cəhənnəmdən qorxunc

bir mənzərənin təsviri idi. Ölülərin canı olsaydı, danışardı nələr çəkdiklərini. "Qisas qiyamətə qalmaz" demişlər, amma qisası qiyamətə qalmışdı ölülərin. Heç zaman dərdlərini danışa bilməyəcəkdi ölülər. Sonsuz sayda canlar alan ölüm heç zaman bu qədər də yorulmamışdı can almaq vəzifəsinə keçəndən bəri. Gözləri çıxmış ölümün görə biləcəyi heç nə qalmamışdı. Gördüyünü görmüşdü artıq bir gecənin içində. Gördüklərini görmək istəməsə də görmüşdü. Ölüm belə məyuslaşmışdı insanların bu dərəcədə vəhşiliyindən dolayı. Öldürənlərin öldürülənlərə etdiyini ölüm belə etməzdi heç zaman. Amma insan olmadığını bir daha göstərdi insan olmayan "insancığazlar".

17.04.2011

LABİRİNT DÜNYANIN SEVGİ BUCAĞI...

Haradadır o bucaq?! Milyon illərdir axtara-axtara tapa bilməyirik o bucağı biz. Kor işığa həsrət qalan qədər həsrətik o bucağa. O bucağın varlığı utopik görünür bizə. Bəzən nağıllarda, bəzən xəyallarda arayırıq, tapa bilmirik ki, bilmirik. Tapa biləcəyimizə də ümidimizi üzürük çox zaman. Nə bilək, bəlkə də bir addım ona yaxınlaşdığımız zamanlar da olub, amma hiss etmədən, duymadan uzaqlaşmışıq o bucağın ətrafından. Bəlkə də qapımızın ağzında saatlarla gözləmiş bizi, biz isə eşitməmişik qapımızın dəfələrlə döyüntüsünü. O, özü bizə öz ayağı ilə gəlmişkən, biz özümüz onu uzaqlaşdırmışıq özümüzdən. Nə bilim o qədər "bəlkələr" var ki, bəlkə də elə "bəlkələr" unutdurub bizə o bucağa yetişməyin yollarını və ona görə də şübhələr içində itib-batdığımızdan itirmişik özümüzü, o bucağı, o bucağın mövcudluğunu. Bax beləcə hər an zərrə-zərrə özümüz də bilmədən yadlaşmışıq ona və o da bizə doğma gözü ilə baxmayır daha. Sahildən uzaqlaşdıqca necə dalğalar içində batırsa insan, bax, biz də eynən məhv oluruq beləcə. Onunla aramızda olan körpü bir ümid işığı düşməyəcək qədər zəifladikcə məğlubiyyətimizin təməli qoyulur, əslində.

Bu məğlubiyyət başqalarına bənzəməyəcək dərəcədə sarsıdıcı olacaq və insan o zaman anlayacaq məğlubiyyətinin böyüklüyünü və bu böyüklük ona öz kiçikliyini göstərəcək. Bir zaman edə biləcəklərimizi etmədiyimizdən, zamanla edə bilməyəcəklərimiz çıxacaq qarşımıza və bu zaman öz acizliyimizi anlayacağıq dərindən. O zaman qədrini biləcəyik o bucağın, amma o zaman da artıq gec olacaq və əbədi itirəcəyik o bucağı, daha düşünmək belə yersiz olacaq ona yetişməyin yollarını. Nə qədər ki, hələ tamamilə bağlanmayıb o yollar, o bucağı tapmaq üçün daha inadkar, daha mübariz olmalıyıq. Bu gün, bu gün də yox, elə bu saniyədən etibarən cəhd etməliyik. Bu an heç zaman gec olmayıb, sadəcə, bu anın və bütövlükdə hər anın dəyərini bilməklə qovuşa bilərik o bucağa. O bucağın adı "Sevgi", sevginin məkanı isə o bucaqdadır. Sevgi günəş kimidir, sadəcə, onu görmək üçün qara buludları qovmaq lazımdır gözlərimizin önündən və o zaman günəşlə gözlərimiz arasında məsafənin olmadığının fərqində olacağıq. Həqiqət olan şeyləri xəyal kimi yox, məhz həqiqət olaraq qəbul edə biləcəyimiz də, o zaman həqiqət günəşi parlayacaq ürəyimizdə. "HƏQİQƏT SEVGİDİR, SEVGİ HƏQİQƏT!" – bu yol o bucağa gedən ən gözəl vasitədir.

Bu vasitəni itirməmək öz əlimizdə olduğu kimi, onu itirmək də öz əlimizdə olduğunu unutmamalıyıq. Ən əsası "qırmızı" işıq yanmamışdan öncə yetişməliyik ona, əks halda, qəbul etməyəcək o bucaq bizləri.

20.10.2011

YAZMAQ

Çoxlarının asan düşündüyü, azlarının isə olduqca mürəkkəb proses olduğunu anlamasıdır YAZMAQ. Hər kəsə nəsib olmayan, ancaq hamının daxilinin ən gizli nöqtələrinə qədər sirayət edən əbədi bir tələbatdır YAZMAQ arzusu. Zamanından, məkanından asılı olmayaraq o, səni haqladısa, əsirinə çevrilir, onun əlindən heç yana qaça bilməyəcək dərəcədə qüvvətlidir, yazmaq vergisi.

Ən çox həssas olan insanların qəlbində zərrə-zərrə böyüyərək, anidən vulkan kimi partlamaqla özünün mövcudluğunu göstərməkdir YAZMAQ. Əgər yanar qəlbin, hər şeyi duyacaq istedadın yoxdursa, axı necə qavraya bilərsən YAZMAĞIN nə olduğunu. Sən onun əsirinə çevrildikcə, o da sənə xidmət etməyə hazır olan bir qadın kimidir YAZMAQ. Yalnız üzdə deyil, onu içdə hiss eləməyi, nazı ilə oynamağı sevəcək qədər ərköyündür YAZMAQ. Şıltaqlığına dözə biləcəyin qədər sənə böyüklük gətirməkdə, əsla, xəsis deyil YAZMAQ. Bəzən bilinməyəcək səbəbdən uzaqlaşıb yan qaça da bilər, günlərlə, aylarla, hətta illərlə də gözləməyə məhkum edər səni və sən gözləyə-gözləyə ondan həmişəlik ayrıldığını düşündüyün zamanda anidən döyülər

ürəyinin qapısı və sən onu bu qapıdan daxil edəndə bir ömrün yükünü çiyinlərindən atdığını sandığın dərəcədə xoşbəxt olmaq xoşbəxtliyini bəxş edər sənə YAZMAQ. Nəticədə bəzən illərlə düşündüyün mövzunu, aylarla yaza bilməməkdir YAZMAQ arzusu. Onun gəlişinin zamanını ondan başqa kim bilə bilər ki?! Və bəzən hər şey dediklərimin əksinə də çevrilib, səni deyil günbəgün, addımbaaddım izləyə də bilər YAZMAQ və sən onunla ruhla can kimi yaşayarsan zamanı. Heç nəyin səndən yox, məhz ondan asılı olduğunu, sənin onu gözləməyinlə yox, onun səni yaxalamağıyla bağlı olduğunu unutmamaqdır, sadəcə. Və bunu unudanlar, sadəcə, yazmaq üçün çapalaya-çapalaya keçirərlər həyatı və sonda nə yazıları əbədiyyətə qovuşdurar onları, nə də onlar yazdıqları ilə öyünə bilərlər. Səni səndən alıb özündə anlamadığın məkanlara götürə bilmirsə, düşüncələrin o zaman səhrada su axtarırcasına boşuna zaman xərcləməkdir, YAZMAQ. Torpaq su ilə becərildiyi kimi, yazmaq da istedadla yetişib, duymaqla yaşanar və o zaman sözünü deməklə hünər göstərməyə qabil olar insan. Nələri yaza bildiyindən asılı olmayaraq, nələri yaza bilmədiklərin düşündürməlidir səni və sən düşüncələrinlə fəth edə bilərsən zamanla yaza bilmədiklərini. Zaman

hər şeyin açarı, açar isə zamanın dərinliklərində gizlənən sirli bir vasitədir. Bu vasitədən istifadə etməyi bacaranlar nail ola bilər istədiklərinə. Sonda, sonu olmayan sonsuzluqda əbədi səadəti axtarıb tapa bilməkdir, YAZMAQ.

28.10.2011

ATILMIŞ MƏLƏK

(Gecə barlarında cəhənnəmi yaşayan günahsız qadınların xatirəsinə ithaf.)

I

Atılmışdı. Bir "saf" bildiyi sevgilisinin amansız tuzağına düşmüşdü Mələk. O gecə olanların necə baş verdiyini özünə belə inandırmaqda çətinlik çəkirdi. Ehtirasınmı qurbanı olmuşdu, ya bir xoşbəxt ailə qurmaq arzularımı tutmuşdu gözünü. Hər nə isə olan olmuşdu artıq, yayından çıxmış oxu kim qaytara biləcəkdi. Bir tək kiçicik kağız parçası qalacaqdı "saf" bildiyi sevgilisinin gedişinin ardından.

"Səni məhz bu gecə üçün xəyal edirdim və bu gecə sənlə mənim aramızda olan ilk və son gecə olacaq. Məndə sənə qarşı sevgi yox, sadəcə, bir ehtiras, bir şəhvət oyanmışdı içimdə və sonda istəyimə çatdığımdan dolayı olduqca xoşbəxtəm. Səhər sən bu sətirləri oxuyan zaman mən uzaqlarda, çox-çox uzaqlarda olacağam və bir daha qarşılaşacağımıza belə ümid etmirəm. Əlvida!"

Bu sətirləri oxuduqca yeddi dəfə ölüb-dirilmişdi Mələk. Hara getsə, kimə getsə bağlanacaqdı üzünə

qapılar, damğalanacaqdı və bu gözəl adın sahibi ömürlük lənətlənəcəkdi. Bütün bunları düşündükcə daxilində bir titrəyiş yaranır, gözlərindəki yaş leysan kimi axa-axa süzülürdü yanaqlarından. Getdiyi yerlərdə, döndüyü küçələrdə, izdihamlar içində bir tək onu axtaracaqdı Mələk. Əlində olan vur-tut on manatı yeddi gün xərcləyəcəkdi, sadəcə. Bəs sonra, sonra nə edəcəkdi dalğalar içində boğulan adam.

Hadisədən keçən dörd gün ərzində çox şeyi fikirləşmişdi, çox götür-qoy etmişdi. Bir əlac yolu tapa bilməmişdi. Bir o murdar işi düşünməmişdi hələ. Ancaq onu da düşünməyinə çox az zaman qalırdı və zaman onu o işə doğru aparırdı. Bir zaman adı "Mələk", özü mələk olan bu insandamı o şeytan əməlinə üz tutacaqdı. (Ətiniz ürpəşirsə demək hələ yaşayır vicdan, kor olmayan gözlər var demək). Mələklərin şeytana möhtac olmasından daha betər olası bir şey varmı dünyada. Yox, əlbəttə ki, yox, ola da bilməz, olması belə mümkün deyil...

II

Zaman: 2011-ci ilin bir yaz səhəri. Məkan: Bakının gecə barlarından biri. O barlardan biri ki, səhərə kimi ulayırdı "musiqi"lər, atılıb-düşürdü fa-

hişələr, bərəlmiş gözləri ilə "kişiliyindən" zövq alırdı kişiciyəzlər. Siqaret tüstüləri, içki qoxuları, dəyişkən işıqları ilə cəhənnəmi xatırladan, adını çəkməyə belə dilim gəlməyən gecə barlarının birində bir zaman mələk olmuş bir qadın da yaşayırdı bu cəhənnəm həyatını. O həyat ki, ona "sevgili"sindən ərməğan edilmişdi, təsəvvür edirsiniz sevgilsindən. Necə də qəribə səslənir deyilmi?! O, sevgili ki, bir daha heç zaman onunla qarşılaşmayacağını yazırdı son məktubunda. Hər sözü bir insan öldürən sətirlərində. İllər ötmüş, Mələk də, o da bir xeyli yaşlaşmış olsalar da, yenə bir-birini tanıya biləcəkləri qədər cavan idilər hələ və tale o "saf" sevgilini özü öz ayağı ilə gətirmişdi Bakının gecə barlarının birinə. Öz fahişəsini gözləyirdi o "saf" sevgili, XXI əsrin saxta məcnunlarından biri. Və zaman yetişdi daxil olduğu iki nəfərlik otaqda qarşısına çıxacağı fahişənin o qadın olacağını heç zaman güman eləməzdi bəlkə də. Bəlkə də heç güman etməmişdi də. Gözlərinə inanmasalar da artıq hər ikisi inanmışdı buna və yuxu kimi anın mövcudluğuna. Bir müddət sükut çökmüşdü araya və sonra oğlan yalvarmağa başlamışdı, etdiyi əməlinin alçaqlığından dolayı üzr istəmək, yalvarmaq nəyi dəyişəcəkdi ki. Və sonra Mələk özü son dəfə məhz burda, bu gecə

barlarının birində hər şeyə son qoyacaq və ürəkləri yandıran bu sözləri deyəcəkdi "saf" sevgilisinə.

"Səni adam bilmişdim, adam bildiyim üçün də inanmışdım sənə, qəlbimi vermişdim, sevmişdim səni, demə, heç sevilməyə dəyməyəcək qədər alçaq, əclaf imişsən sən! İndən sonra min dəfə yalvar, üzrxahlıq elə! Axı bunlar nəyi dəyişdirəcək ki, yoxsa nələrinsə dəyişə biləcəyinə inanırsan hələ də! Adım ömürlük damğalanmış, qaytar mənə adımı, namusumu, qaytar! Ötən günlərimin səadət dolu anlarını qaytar! Bir bakirə qızcığazın ümid dolu arzularını qaytar! Bilirəm, qaytara bilməyəcəksən və bunun üçün də daha səndən istəniləcək heç nəyim yoxdur! Məni bir daha görməyəcəyini düşünürdün, amma indi pis yer olsa da burası, özün-öz ayağınla gəlmisən görüşümə. Burası sənin kimilərin bədbəxt elədiyi onlarla qadının son ümid yeri, cəhənnəm məkanı! Məni, mənim kimi zavallıları buraya sürükləyərək məhv etməklə kişilikdən dəm vuran "kişiciyəzlərlə" doludur bu məkan. İndi isə son qərarı da mən verəcəyəm, sən yox: rədd ol! Rədd ol gözlərim önündən ki, bir fahişə qadından daha alçaq olan birini görməsin gözlərim!"

Və hər şey bununla bitəcək, illərlə çəkdiyi acısını azacıq olsa belə, azaldacaqdı Mələk. Ürəyindən keçənləri o ki var deyəcəkdi "saf" sevgilisinə.

"Dağ dağa rast gəlməsə də, adam adama rast gələr" kəlamını boş-boşuna deməmiş babalar. Dünyanın harasında olursansa ol, əgər qismətində nə isə bir şey varsa, demək, mütləq olacaq o şey, görüşmü, tanışlıqmı daha nələr, nələr.

16.11.2011

BAŞ HƏRFİ " "

" "...ümid dolu gəncliyimin, puça çıxmış arzularının qatili. Ömrümün ən şirin anlarını acıya çevirən ilanların ən zəhərlisi. Əlifbada ən çox mənə səni xatırladan baş hərfi " " olan, amansız sevgilim. Hər nə desəm azdı sənə, sən ey rəhmsizlər, rəhmsizi.

Yox, bəlkə də heç zaman, bir ömür boyunca oxumayacaqsan sənə yazdıqlarımı, giley dolu hekayəmi. Və ya varlığımdan, yazılarımdan xəbərsiz yaşayacaqsan gələcəyini. Bir dəfə də yadına düşməyəcəyimi düşünürəm, çünki sənin xasiyyətinə yaxşı bələd olduğumdan deyirəm bunları. Qışqırsam eşitməyəcək, yazsam oxumayacaq, ağlasam duymayacaq, ölsəm ağlamayacaqsan. Bilirəm, bütün bunların heç bir dəyəri yoxdur sənə, çünki sən sənə qiymət verənlərin qiymətini anlamayacaq qədər xudbinsən. Yeddi il bundan öncə necə idinsə eləcə də qalmısansa, acıyıram sənə "həyat yoldaşım" deyən (rəqibim olmağına rəğmən) o insanın gününə. Yox, yəqin ki, burda yanıldım, nə bilim, bəlkə o, səndən də betər xudbinin biridir, sən onun yanında toya getməli biri imişsən. Hər halda, fərziyyələr çox ola bilər, ancaq bir həqiqət var ki, sən hər hansı bir kişinin xanımı, qadınısan. Sənə yalnız və yalnız xoşbəxtlik diləməyə çatır gücüm. Mən qarğış üçün

yox, alqış üçün yarandığımdan məndən ancaq bunu gözləyə bilərsən.

" "...bilirəm oxumayacaqsan yazdıqlarımı. (Acaq unutma ki, mən bir yazaram, dərdlərimin yazarı. Sənsiz yaşaya bildimsə də, yazmasam yaşaya biləcəyimə inanma. Həyatda ən etibarlı dostum ilhamımdır, çünki məhz o kədərim də, sevincim də mənimlə qoşa addımlayır, heç zaman məni tərk edib getmir, uzaqlaşmır yanımdan). Sən oxumasan belə minlər, bəlkə də milyonlar oxuyacaq yazdıqlarımı, çünki hər kəs özünü tapacaq yazdıqlarımda. Çoxları bəlkə də öz vəfasız sevgilisinin baş hərfini yazacaq sənin baş hərfin olan " "nin yerinə. Bir tək sən oxumayacaqsan, xəbərsiz qalacaqsan yazdıqlarımdan. Qəribədir deyilmi?! Axı bir zamanlar ilk oxucusu sən idin hər nə yazırdımsa, qəzet oxumayan sən mənə görə izləyirdin ədəbi mətbuatı.(Özün filologiyada oxumağına rəğmən. İnsafən bunu da deməliyəm: "Sən əlaçı idin, sözün əsl mənasında əlaçı. Sənə qrup yoldaşlarım oxumağına görə həsəd aparanda, mənsə sənə qovuşmaq üçün alışırdım"). Mənə görə ilk dəfə Yazıçılar Birliyinə ayaq basmışdın, axı o gün, mənim ikinci kitabım olan "Məni sevgi yaratdı" kitabımın təqdimatı idi. Bir tək gözüm səni gəzirdi onlarla insanların arasında, görkəmli yazıçılar, şairlər, qohumlar, dostlar arasında bir tək sənə görə həyəcanlı idim, çünki tənqid edilsəydim, məhz sənin yanında utanacaq, qızaracaqdım. Şükürlər ki, yanında bir o qədər də acizləşmədim o gün. Tənqidlərlə yanaşı tərifləndim də. Nə bilim, bəlkə sən də qürurlanmışdın, axı sənin sevgilinin kitabının təqdimatı idi. Onu hər gün intizarda qoymağına rəğmən, o, səndən bir an olsun belə, ayrılmaq istəməyən aşiq idi. Deyəsən, səni şikayət edə-edə özümü də tərifladim bir az. Heç yaxşı çıxmadı. Yoxsa son illər ərzində mən də xudbinləşmişəm. Yox, bu ola bilməz, ona görə ola bilməz ki, bir şair heç zaman xudbin ola bilməz, kim nə deyir desin, mən şairlərin xudbin ola biləcəyinə inanmıram. Hə, nə isə, uzaqlaşmayım sənin atmosferindən. Hər necə olsa sənin havanın da öz gözəlliyi inkaredilməzdir. Çünki, sənin havan mənə ilham vermiş, dərin-dərin düşünməyimə səbəb olmuşdur. Amma nəticədə heç bir şey səni qaytara bilməz. Sən elə "sən"sən. Üzərimə səni yazılarımda yaşatmaq düşür, sadəcə və inanıram ki, sən o yazılarda sonsuzadək yaşayacaqsan. Çünki hər şeydə bir az "sən" varsan və sən olan hər şey gözəldir, əvəzsizdir. Sənə aid "şah əsər"imi nə zaman yazacağımı bir ulu Tanrıdan başqa heç kim bilmir.

Baş hərfi " " indi bilmirəm haralardasan. Azacıq eşitmişəm ucundan-qulağından. Eşitmişəm ki, ailəlisən, bir qızın var, işləmirsən. (Təəssüf ki, o qədər oxumağın sonunda işsizsən. Bəlkə həyat yoldaşın razı deyil işləməyinə, yaxud ehtiyacın yoxdur işləməyə. Çox şey düşünmək olar , ancaq nəticədə işsizsən). Xoşbəxtsənmi, yaxud əksinə. Hər nə olursan ol, onsuzda həyatda hər şey nisbidir Eynşteyn misalı.

Baş hərfi " " aradan yeddi il keçib. Düşünürsən 7 il, zarafat deyil, bir igidin ömrü deyib babalar. Həyatımda nələr olub keçib saymaqla qurtarmaz " ". Uğurlarım da olub, itirdiklərim də. Ən başlıcası, səni itirmişəm, bundan sonra itiriləcək nəyim var ki... Hər nə itirsəm yenə sənin yoxluğunun yanında heç nə olacaq. Bu yaxınlarda üçüncü kitabımın nəşrinə hazırlaşıram, xəyal edə bilmirəm sənsiz keçiriləcək kitabımın təqdimatını. İnanmazsan bəlkə də, yazarkən nələr keçirdiyimi. Qələmlə yazmıram deyəm ki, mürəkkəb yerinə qanımla yazıram " ". İndi artıq çoxları bilgisayarda yazmağa adət edib, axı biz yazarlar da zamanla ayaqlaşmalıyıq.(Ancaq mənə görə qələmlə yazmaq daha gözəldir). Ay səni qoluqanadı qırılmış həyatımın səbəbkarı! Bilirsən, kimlərsə xəbər verə və gələsən o təqdimata, yaxud yu-

xunda qeybdən xəbər verələr sənə təqdimatın keçiriləcəyi məkanı, tarixi. Nə olar bilirsən, düzü, mən də bilmirəm nələrin olacağını, nələrin yaşanacağını. Bir onu bilirəm ki, o baş versə heç nə əvvəlki kimi olmayacaq həyatımda. Həyatım 180 dərəcə bucaq altında dəyişəcək istiqamətini. Ax, bir gəlsən...Yenə yeddi il öncəki kimi səni düşünəcək ürəyim, səni axtaracaq gözlərim. Səni, səni, səni baş hərfi " " olan, sevgilim. Sən gəlsən kölgəndən belə tanıyaram varlığını, saçlarının ətrindən anlayaram iştirakını... Ax xəyallar, xəyallar bir gərçək olsa, olsa da olsa.

Baş hərfi " " sonda sənə yeddi il öncə yazdığım şerdən iki misranı xatırladıram, bunu ömür boyu xatırladacam sənə.

Məni istəsən də, istəməsən də,
Mənim olacaqsan şerlərimdə.

Hə, sevgilim, mənim olacaqsan. Cismani qovuşmasam da sənə, ruhən əbədi mənimsən, mənim olaraq da qalacaqsan. Bu ruhu heç kim məndən ala bilməz, hətta ölümün özü də. Çünki mən bütün ruhumla sənə bağlıyam, sən mənim içimdə görünməyən bir "mən"sən. Bütün bu mənlərimlə sən mənimsən, mənimsən.

10.12.2011

YOXLUĞUMUN VARLIĞI...

Susdum.... bacara bildiyim və bəlkə də bir az da artıq susdum... Susdum ki, belə daha məsləhətmiş deyə düşündüm öz-özümə. Həftələr ayları, aylar illəri itələdi bir-birinin ardı ilə. Və zaman ehtimal edə bilmədiyim qədər tez keçdi, elə keçdi ki, bir yarpağın yanıb kül olması qədər tez. Susmağım yoxluğum yox, yoxluğum varlığının bir əlaməti idi, çünki mən yoxluğumda da var idim və yoxluğum gözlə görünə bilməyəcək qədər varlıq idi. İllər sonra yoxluğumun varlığında özümü tapa bildiyimdə sevindim. Sevindim ki, yoxluğumda varlığım unudulmayıb, varlığında yox olanlardan olmayacağam.

Susdum... ancaq bir an belə itirmədim həyat eşqimi, yaşamağa, yaratmağa olan sonsuz məhəbbətimi. Daima nələrəsə, nələri isə etməyə çalışdım. Hər nə etdimsə, az gördüm, aza qane olmadım. Hər nə etdimsə, susaraq etdim, sükutla yola verdim yoxluğumun varlığını. Özümdən danışdırmadan yaşamağı bacardım, yaşadım ki, sadəlik daha gözəldir. Sadəliyimdə tapdım yoxluğumun varlığını. O varlıq ki, əbədi yoxluqdan azad edəcək məni və

bir gün bu dünyada olmayan zaman belə unutdurmayacaq yoxluğum varlığımı. Yoxluğumla varlığım arasında heç bir məsafə olmayacaq, çünki mən yoxluğumda da var olacağam...

05.12.2011

BİR RUHUN YAZDIQLARI...

fantastik həqiqət hekayəsi

Hə... deyəsən, mən ölmüşəm axı. Dostlar, tanışlar yığışıb həyətimizdəki xeyir-şər evində yeddimi verirlər. Çox təəssüf ki, mən bu məclisdə iştirak edə bilmirəm. Bəlkə də sağ olsaydım, heç zaman məni bu qədər yada salmazdılar. Dirilər dirilər ölümündən sonra axtarırsa daha çox gecdir. İndi camaatın gözündə yaş görsəm də mənim üçün heç bir dəxli yoxdur. Hətta valideynlərimin göz yaşlarına belə etinasızam. Çünki mən əzab dolu bir dünyadan, maddiyyatdan ayrılmış, çəkisizlikdə, rəngsizlikdə yaşayan bir ruham. Bütün bunlar mənim üçün olduqca əlverişlidir. Ona görə əlverişlidir ki, indi mən tam sərbəstəm. Ona görə sərbəstəm ki, daha nə ailə qayğıları, nə iş problemləri düşünürəm. Məni heç nə maraqlandırmır, bir şeydən savayı. Onun da adı hələ o dünyada olarkən hər an məni izləyən, qəlbimi alovlandıran, sönməz bir ehtirasımdı və bu ehtirasın adı "yazmaq"dı. Hə, yazmaq, daxilimi boşaltmaq. Bacara bildiyim qədər içimdəki sarsıntıları, acıları çölə püskürmək. Yazmaq ruh halı ilə bağlı olduğu üçün məzara getməyən, çürüməyən

yeganə nemətimdi. Mənə yalan dolu dünyadan qalan yalnız o oldu, digər hər şeyim torpağa qarışıb, yavaş-yavaş çürüməyə başlayır. Artıq yeddi gündür ətimi böcəklər, qurdlar yeməklə məşğuldur. Onları da qınamıram. Axı onlar da canlıdır. Onlar da yaşamaq üçün nələri isə yeməlidirlər, insan əti olmağına rəğmən. Ancaq bir tək ruhumdakı, fitrətimdəki bu nemət mənimlə yoldaşlıq edir, o əbədi olaraq mənimlə yaşayacaqdır.

Nə isə, məqsədim yasım və ölümümü təsvir etmək yox, ruhumun ölümdən sonrakı halı ilə bağlıdır. Yuxarıda yazmaq ehtirasımın gücündən dedim, indi də ölümümün yeddisi günü ruhumun başına gələnlərindən danışmaq istəyirəm.

Əvvəl ruhum xeyir-şər məclisini dolaşıb dirilərin mənsizliyini müşahidə etmək istədi. Təbii ki, heç kəs məni görmürdü, görə də bilməzdi axı, mən var ola-ola yoxdum. "Yoxdum" deyəndə də düz çıxmır vardım, amma onlara görə "yoxdum" desəm daha yerinə düşər. İnsanların məclisdə oturub nə danışdıqlarını dinləmək istədim öncə. Haqqımda yaxşı danışanlar da, pis danışanlar da oldu. Qonşumuz Əli dayı digər tanışlara: "Rəhmətlik cavan getdi, olduqca yaxşı insan idi. Bir kimsəyə pislik etməz, bir

kimsədən də qeybət etməzdi. Pisliyə qarşılıq olaraq yaxşılıqla cavab verərdi. Qədərindən artıq sadə idi, utancaqlığını demirəm hələ". Bu sözləri eşidən ruhum Əli dayıya sonsuz minnətdarlığını elədi, təəssüf ki, o bunları eşitməyəcəkdi, çünki yaradan bunu öz sirri olduğundan kimsəyə bildirməmişdi, hətta öz sevgili dostu peyğəmbərinə də. Məclis davam edir, yavaş-yavaş söhbətlərin mövzusu da dəyişirdi. Hərə öz dərdindən, işindən-gücündən danışmağa başlamışdı. Başda əyləşən molla da elə hey danışırdı. Çox zaman danışığını dinləmirdilər də. Hərə öz hayında idi. Heç on dəqiqə də olmazdı ki, buradan çıxıb öz əvvəlki evimə getmək istədim. O evdən ki, yeddi gün öncə cənazəmi götürmüşdülər və məni son mənzilə yola salmışdılar. Əslində, məni yox, mənə aid olmayan cismimi götürmüşdülər, ruhum öz yerində idi. Anam-atam ağlayırdı, ancaq mən bunun günah olduğunu düşünürdüm o zaman. Qışqıra bilsəydim, susmaqlarını deyərdim. Evimizə, qapının düz yanına çatanda ağlaşma səslərindən (qulağım demirəm, axı artıq cismim yoxdu) ruhum titrədi. Bir balasını itirən anam yerə-göyə sığmırdı. Düzü ən çox anama acıdım. İki mənada acıdım ona. Birincisi, ayrılıqdan yandığı üçün. İkincisi, mənim

indiki dünyada xoşbəxtliyimdən xəbərsiz olduğu üçün. "Mən indiki dünyada necə də xoşbəxtəm!" demək istədim anama, ancaq nə fayda səylərim nəticəsiz qalacaqdı. Axı mən, sadəcə, ruhdum. Dili, ağızı olmayan, fəqət zamansızlığa, məkansızlığa malik olan bir ruh. O ruh ki, insanı insan edən sirli bir varlıq. Yavaş-yavaş dəhlizdən keçib mətbəxə daxil olarkən ruhum bilgisayarımı gördü. Sevə-sevə işlətdiyim, əzizlədiyim o cismani cihazı. Bilgisayarı açıb ora öz düşüncələrimi yazmaq istədim. Sonra bunun mümkünsüz olacağını düşündüm, amma bütün enerjimi yığıb onu açа biləcəyimi də unutmadım. Elə bu dəmdə evdəkilərin aşağı düşəcəklərini eşitdim. Əlimə fürsət düşmüşdü və bu fürsəti dəyərləndirə bilməsəm, o zaman günahkar özüm olacaqdım. Az sonra ev dirilərdən tamamilə boşaldı və mən ruhumla tək qaldım. Bilgisayarı açmaq üçün bütün enerjimi topladım və istəyimə nail olduqdan sonra olduqca sevindim. Axı düşünəcəklərim itməyəcək yenidən yazılacaqdı və sonradan bilgisayarı açan zaman yazdıqlarımı görəcəkdilər, oxuyacaqdılar. Demək, mən bir yazar olaraq hələ də yazmaq qabiliyyətimi itirmədiyimi dirilərə sübut edəcəkdim. "Word" proqramını açdıqdan sonra ilk

işim düşüncələrimi toparlamaq oldu və az bir zaman ərzində onları yazmağa nail oldum. Bundan sonrakılar "Bir ruhun yazdıqları" adı altında dünyaya yayılacaq, bəlkə də milyonların marağına səbəb olacaq, elmdə yeni bir dönəmin başlanğıcına gətirib çıxaracaqdı.

***

Mən ruham. Yeddi gün öncə dünyasını dəyişmiş gənc yazarın ruhu. Sizə görə ölmüşəm, mənə görə isə mən əbədi olaraq dirilmişəm. Sizdən mənə heç nə qalmadı, məndən sizə qalacaqlar da fanidir. Sizə görə mənsizlik ölüm qədər acıdır, mənə görə isə ölümün heç bir acılığı yoxdur. Görürsünüz, mən necə də dəyişmişəm. Məni heç kim ölüm bacaran qədər dəyişə bilməzdi. Nə anam, nə atam, nə də hər gün saçlarını tumarladığım biricik sevgilim. Nə də bütün bunları mənə bəxş eləyən həyat. Həyatdakı bütün sevinclər, kədərlər, problemlər, düşüncələr. Heç nə. Mən sizin dünyanızda olduğundan milyon dəfə daha səmimiyəm. Bütün bunları belə başladım ki, biləsiniz. Biləsiniz ki, sizin dünyanızda heç nə ölüm qədər təsirli deyil və indiki dünyam qədər gözəl deyil. Ruhumun varlığını daha çox indi duya bilirəm. İndi duya bilirəm həqiqətin varlığını. Hər

kəs ruhuna bağlıdır amma, heç kəs bu bağlılığı mənim öncəki dünyamda tam yaşaya bilmir, tam nədir heç milyonda birini desəm yenə azdır. Gec-tez hamınız anlayacaqsınız ruhun nə demək olduğunu. Mən, sadəcə, azacıq məlumat vermək üçün yazıram yaza bildiklərimi. Yaza bilmədiklərim daha çoxdur. Çünki zaman azdır, sizlərin evdə olmadığı zamanı deyirəm. Siz evdə çox olursunuz və mən də həmişə yaza bilməyəcəm. Düşündüklərimi də sizə çatdıra biməyəcəm. Mənə verilən bu az zaman icazəsini dəyərləndirə bilmək üçün çalışıram. Hər nə yazacamsa, qənimətdir. Mən sizin dünyanızda bir an belə tamam xoşbəxt ola bilmədim. Maskalanmış insanlar, itirilmiş dəyərlər, ölmüş vicdanlar, süni təbəssümlər arasında necə xoşbəxt ola bilərdim axı?! Hər gün internetdən, televiziyadan eşitdiyim qan xəbərləri, ata-oğul, qardaş-bacı bıçaqlanmaları necə xoşbəxt edə bilərdi məni və ya xoşbəxt olmağa haqqım vardımı mənim? Yox, əlbəttə ki, yox. Xoşbəxtliyini başqalarının bədbəxtliyi üzərində quranlardan olmaq düşüncəsi necə xoşbəxt edə bilərdi məni?! Məni, məni, məni çoxlu deyə bilərəm sizə bu mənilərdən. Sonda bu "məni"lər bir nöqtədə cəmlənir. O da xoşbəxtliyini rədd eləyən adamların cəmləşdiyi

məkandır. Sizlər mənə acıyırsınız, "cavan öldü" deyirsiniz. Əslində, hər şey əksinədir, acınılası mən deyiləm, sizsiniz. O sizlər ki, xoşbəxtliyi tapmaq üçün çapalayırdınız, çapalayırsınız və çapalayacaqsınız. Ancaq hər nə qədər çapalasanız da tapa bilməyəcəksiniz. Çünki həqiqi xoşbəxtliyin məkanı deyil yaşadığınız dünya. Süni xoşbəxtliklərlə aldadıb başınızı, ətinizi yeyir o dünya. Sizlərsə hər gün daha bağlanırsınız dünyaya, dünya sizdən hər an uzaqlaşdıqca, siz ona daha da yaxın olmaq istəyirsiniz. Oyun kimidir dünya həyatı, mənim dünyamda isə hər şey təbii və ecazkardır. Şübhə ilə yanaşacaqsınız, amma mən sizin dünyanıza, əsla, qayıtmaq istəməzdim. Çünki sadaladıqlarımı yenidən yaşamaq özümə qarşı ən böyük təhqir olardı. Hə, necə düşünürsünüz düşünün, mən ruham. Ruhlar yalan söyləməz və ya ruhun dəlisi olmaz. Mən heç zaman dəli olmadım, zatən.

Sonda, ey o dünyanın süni adamları! Hamınıza səslənirəm! Yazdıqlarımı sona kimi oxuyun, məndən nigaran olmayın! Əksinə, mən sizlərdən nigaranam ki, ruhunuzu itirməyəsiniz deyə. Əgər olanqalan ruhunuzu da itirsəniz, o zaman tamamilə məhv olacaqsınız. Yeganə yazmaq ehtirasımın mə-

nimlə sonsuza qədər var olacağını düşünmək daha da sevindirir məni. Çünki ruhumun varlığı, yazmağımın da varlığı deməkdir. Bütün bunlara görə ruhuma borcluyam və mən ruh bir yazaram. Bir ruh yazar olaraq da, yazmağıma davam edəcəyəm. Siz evdə olmayan müddətlərdə bilgisayarımı açıb yazacağam və siz də oxuyaraq yazılarımı internet saytları, sosial şəbəkələrdə bu adla paylaşacaqsınız. "Bir ruhun yazdıqları".

27.12.2011

AFORİZMLƏR

Adamlar həyatı sevmirlər, amma sevə-sevə yaşayırlar.

***

Məndə hər şey vardır, səndəsə bir şey,
Mənim hər şeyimdir səndəki bir şey.
O sənin sevgindir, məhəbbətindir,
Sənin mənə olan məhəbbətindir.

***

Səadət qapımızın ağzındadır, sadəcə, biz o qapını açmırıq ki, içəri daxil olsun.

***

Dahi olmaq istəyirsənsə, heç zaman dahi olacağını düşünmə.

***

Yol gedirəm sonsuzluğa, demək, sonum olmayacaq.

***

Heç kəs səhv etməkdən sığortalanmayıb, ancaq bir kəs eyni səhvi yenidən və yenidən edirsə, bu səhv yox, yaramazlıqdır.

***

Labirint dünyanın sevgi bucağı, axtarıb tapana səadət düşür.

***

Heç nə dəyişməsəydi, hər şey məhv olardı. Dəyişkənlik əbədiyyətin açarıdır.

Şairlər ruhlarına borcludurlar, çünki ruhu həssas olmayanın şair olması, əsla, mümkün deyildir.

***

Hər şey önəmli deyil, önəmli olan hər şeydir.

***

Həsrət qaranlıq qədər qorxulu, qaranlıq həsrət qədər üzücüdür.

Sən düşüncə üfüqlərinin genişliyi qədər əzəmətlisən.

***

Mən düşündüyün qədər aciz, sən də düşündüyüm qədər mərhəmətli deyilsən.

***

Sevgisiz ürək, işıqsız ev kimidir. İşıqları yandırın ki, qəlbiniz nurlansın.

***

Poeziya-ruhun sarsıntısı, qəlbin rahatlığıdır.

Tale yazılır, bizsə onun cızma-qaraları içərisində özümüzü tapmağa çalışırıq.

***

Bir balaca yumşaq olmaq istədim,
Niyyətimi anlamayıb güldülər.
Bir balaca torpaq olmaq istədim,
Üzərimdə dava salıb böldülər.

Mündəricat

Ön söz 7

ŞEİRLƏR

Çəkirik 11
Dünya 12
Dünya özün boyda dərd verdin mənə 13
Xəzər 14
Allah 16
Yuxular 17
Qara bulud 18
Qabırğalar 19
Məmləkətim 20
Hələ 21
Ağac 22
Hər kəsin üzündən tökülür ölüm 24
Ölümümə ağı 25
Körpə dilənir 26
Dözürəm hələ 27
Ağartmayıb 30
Soyuyub 31
Türkün səsi 32
Mən də dilənçiyəm 33
Nigaran tabut 34
Ölən torpaq 35
Gərək 36
Şəhər gecələri 38

Anadır 40
Gülmə bu dünyanın üzünə gülmə 41
Bir gün 42
Gülə-gülə ağladım 43
Yağ, ey yağış 44
Bir yarpağın qürub çağı 46
Yağış olmaq istəyirəm 48
Gülə-gül kimi yanaş 50
Qıymayın barışın cocuqlarına 51
Tapmaq istəyirəm 52
Əsgərlik düşüncələri 54
Gözünü yaxşı aç 56
Nəyi itirmişəm tapa bilmirəm 58
Qadın 59
Adlar 60
Yazılar 62
Düşmən biləcək 64
Qəribə 65
Mən artıq yer adlı yerdən küsmüşəm 66
Zaman 67
Mələklərin göz yaşı 68
Varlığımda itən zaman 69
Fatiməm 70
Örnək sənət sahibi 71
Səni gizləmişəm 72
Sevgilər və nifrətlər 73
Yoxsulluğun sən üzü 75
Sənə görə 78


Bu gecə həsrətin özündən böyük 80
Həsrət nəğməsi 81
Gizlənpaç 82
Boyat xatirələr 84
İtirdim 87
Nə yaxşı 89
Çiçək və qızcığaz 91
Həsrətin özündən böyük 93
Bir körpəcik sevinc 94
Küləklər 96
Ceyran demirəm mən sənə ondan da gözəlsən 97
Sənlə bərabər olmaq 98
Açılmayan kitab 99
Axtarıram 101
Nazik kitab 102
Şehsiz gül 104
və bir daha 108
Mühəmməd 110
Ramazan 112
Yalvarış 114
Sən dəxi candan da yaxınsan bizə 116
Qurandı 117
İslama doğru 118
Ölüm mələyi 119
Kara bulut 120
Kabırğalar 121
"Xocalı harayı" 122

ESSELƏR

Ölüm 131
Sevgi haqqında 135
"Ağıllı "dəli" adam" 138
Dahi 143
Ölümqabağı düşüncələr 146
Gözləri çıxmış ölüm 150
Labirint dünyanın sevgi bucağı 152
Yazmaq 155
Atılmış mələk 158
Baş hərfi " " 163
Yoxluğumun varlığı 168
Bir ruhun yazdıqları 170

Aforizmlər 178

Arf - 270514



Habil
Bakı şəhə
2004-cü ild
Pedaqoji
logiya fakültəsini bitirib, hərbi xidmətdə olub. 2001-ci ildə "Səni sevdim, sevəcəyəm", 2003-cü ildə "Məni sevgi yaratdı" kitablarının müəllifidir. Azərbaycan Yazıçılar Birliyinin (2003), Dünya Gənc Türk Yazarlar Birliyinin Maliyyə Nəzarət Təftiş Komissiyası üzvi (2009), Azərbaycan Respublikası Gənclər Təşkilatı Milli Şurasının (Maliyyə Nəzarət Təftiş Komissiyası) (2009), Dünya Azərbaycanlıları Konqresinin (2010), Seçkilərin məntəqə katibi, üzvidir. Şərqi Avropa Ölkələri Gənclər Əməkdaşlığı Konfransının (Bakuruyani, Gürcüstan – 2009), Londonda keçirilən Dünya Azərbaycanlıları Konqresinin XI qurultayının (10-13 dekabr 2010) iştirakçısıdır. Qazaxıstanın Türküstan şəhərində keçirilən "19 Mayıs Türk Dünyası Gənclik Buluşması"nda etdiyi xidmətlərdən dolayı təşəkkürnamə almış (2011), "XX-XI ƏSRİN ZİYALI VƏ YARADICI İNSANLARI" ensiklopediyasında, "Çağdaş Azerbaycan Şiiri "(Ankara, Türkiyə türkcəsində iki şer – 2009) və s. kitablarda yazıları dərc olunub. Prezident təqaüdçüsü (Ədəbi fəaliyyətinə görə – 2009), "Vicdanlı Qələm" ("Qafqaz" Media İctimai Birliyi, jurnalistika fəaliyyətinə görə – 2008) kimi mükafatlara layiq görülüb. 2006-cı ildən Bakı Neft Energetika Kollecində Azərbaycan dili və ədəbiyyat müəllimi işləyir. Ailəlidir, iki övladı var.

QN QANUN NƏŞRİYYATI

Qiyməti: 4 AZN